DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 4 (309) / APREL 2017-Cİ İL



Azərbaycan qədim tarixə, mədəniyyətə malik olan bir dövlətdir. Bizim mədəniyyətimiz, tariximiz qürur mənbəyimizdir, milli sərvətimizdir. Qədim tariximizi əks etdirən tarixi-dini abidələrimiz sübut edir ki, Azərbaycan xalqı qədim xalqdır və ta qədim dövrlərdən bu diyarda yaşayıb, qurub-yaradıb. Azərbaycan qədim müsəlman diyarıdır. Biz fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi 743-cü ildə tikilmişdir. Bu məscid bir neçə il bundan əvvəl əsaslı bərpa edilmiş və qapılarını Azərbaycan xalqının üzünə açmışdır. Əminəm ki, qonaqlar Bakının və digər bölgələrimizin tarixi yerləri ilə tanış olacaqlar.

...Qədim tarixə malik olan Azərbaycan cəmi 25 ildir ki, müstəqil dövlət kimi yaşayır. Keçən il biz müstəqilliyimizin bərpa olunmasının 25 illiyini qeyd etmişik. Bu illər inkişaf, quruculuq illəri olmuşdur. Hesab edirəm ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malikdir. Biz bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsinin dəstəyi və səsi ilə dünyanın ən ali beynəlxalq orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq. Bu, beynəlxalq aləmdə bizə olan münasibətin, hörmətin təzahürüdür.

...Bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. Bu da bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirmək üçün tərəfimizdən irəli sürülən önəmli təşəbbüsdür. Bu gün bütün müsəlman ölkələri birlik, həmrəylik nümayiş etdirməlidirlər. Əminəm ki, gələn ay keçiriləcək Oyunlar həm böyük idman bayramı olacaq, həm də bizim dostluğumuzu əks etdirəcək. Bütün müsəlman ölkələri 10 gün ərzində Bakıda öz təmsilçiləri vasitəsilə bir-biri ilə sıx əlaqələr quracaq, bir-birinin əlini sıxacaqlar. Biz Bakıdan bütün dünyaya nümayiş etdirəcəyik ki, İslam aləmi birdir və bizim birliyimiz bizim gücümüzü artırır.

**Prezident İlham Əliyevin "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə həsr olunan mərasimindəki nitqindən Bakı şəhəri, 5 aprel 2017-ci il.**

## FİNLANDİYALI NAZİR MÜAVİNİ AZƏRBAYCANIN MULTİKULTURAL VƏ TOLERANT ƏNƏNƏLƏRİ BARƏDƏ MƏLUMATLANDIRILIB

Finlandiyada səfərdə olan Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkənin Təhsil və Mədəniyyət Nazirliyinin mədəniyyət məsələləri üzrə nazir müavini xanım Zabrina Holmström ilə görüşüb.

Azərbaycan nümayəndə heyətinə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Azərbaycan Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev, Milli Məclisin deputatı Cavanşir Paşazadə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Azad Məmmədov daxildir.

Zabrina Holmström Finlandiyanın mədəniyyət sahəsində siyasəti, bölüşdüyü dəyərlər və həyata keçirdiyi işlər barədə qonaqlara ətraflı məlumat verib.

Finlandiya rəsmisi irqçilik və terrorizm məsələləri kimi çağırışların bu gün dünyanın ən böyük problemləri olduğunu qeyd edib. Buna baxmayaraq, Finlandiyada fərqli dinlərin təmsilçilərinin dövlət tərəfindən dəstəkləndiyini bildirən nazir müavini bu gün xalqlar arasında mədəni əlaqələrin, dinlərarası dialoqun müxtəlif problemlərin həlli üçün açar rolunu oynadığını vurğulayıb. O bu baxımdan görüşün iki ölkə arasında müvafiq sahədə



fikir mübadiləsi aparılması üçün əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Dövlət müşaviri Kamal Abdullayev bu səfərin dünyanın bir çox yerlərində terror aktlarının baş verdiyi bir zamanda reallaşdığını vurğulayaraq bu kimi halları pisləyib. Dünya ölkələrinin gələcəkdə belə hadisələrin qarşısını almaq üçün birgə iş aparmalı olduğunu deyən Kamal Abdullayev dini dözümlülüyün və tolerantlığın bu iş üçün vacibliyini qeyd edib.

Helsinkidə keçiriləcək "Multikulturalizm və dinlərarası tolerantlıq: Azərbaycanın təcrübəsi və onun Avropa üçün əhəmiyyəti" mövzusunda konfransın məqsədi barədə məlumat verən Kamal Abdullayev ölkəmizin multikulturalizm, dini dözümlülük və tolerantlıq ənənələrindən söz açıb. O, multikultural təhlükəsizliyin mahiyyəti barədə danışaraq müxtəlif etnik və dini müxtəlifliklərin Azərbaycanın zənginliyi olduğunu bildirib və bu müxtəlifliyin qorunmasının mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradıldığını və bu istiqamətdə böyük işlər görüldüyünü diqqətə çatdıran Dövlət müşaviri ölkəmizdə müxtəlif konfessiyaların, dinlərin, millətlərin və dillərin təmsilçilərinə yanaşmada bərabər siyasətin yürüdüldüyünü vurğulayıb.

Azərbaycanda əsrlərdən bəri multikultural dəyərlərin son dərəcə önəmli yer tutduğunu, burada müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqlarını deyən DQİDK-nın sədri Mübariz Qurbanlı xalqımızın bu ənənələrinin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlandığını bildirib. Rəhbərlik etdiyi qurumun fəaliyyəti, Azərbaycandakı dini durum və dövlət-din münasibətləri barədə ətraflı məlumat verən M.Qurbanlı deyib ki, ölkəmizdə müxtəlif konfessiyalar sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərirlər və buna görə bu gün Azərbaycan tolerantlığa və multikultural dəyərlərə görə dünyada nümunə ola biləcək ölkələrdən biridir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə ölkəmizdəki dini dözümlülük və tolerantlıq ənənələrindən söz açıb. Azərbaycanda bütün dinlərə hörmətlə yanaşıldığını deyən şeyxülislam bunun bir çox dünya ölkələrində təəccüblə qarşılandığını, lakin ölkəmizdə adi bir hal olduğunun bildirib. Allahşükür Paşazadə qeyd edib ki, Azərbaycan dövləti ölkədə yaşayan xalqların milli müxtəlifliyini və mədəni dəyərlərini qoruyur və ölkə daxilində insanların qardaşlıq şəraitində yaşaması üçün qarant rolunu oynayır. Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasətin mahiyyətindən danışan şeyxülislam Azərbaycanın multikulturalizm dəyərlərinin dünya ölkələrində təbliğ olunması üçün Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi, Prezidentin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi barədə danışıb.

Milli Məclisin deputatı Cavanşir Paşazadə Azərbaycanla Finlandiya arasında daha sıx əlaqələrin qurulmasında bu səfərin əhəmiyyətini vurğulayıb. Ölkələrimizin eyni dünyəvi dəyərləri bölüşdüyünü qeyd edən Cavanşir Paşazadə bunu nəzərə alaraq parlamentlərarası sıx dialoqun qurulmasının önəmini diqqətə çatdırıb.

Görüşün sonunda Azərbaycan nümayəndə heyəti Zabrina Holmströma ölkəmizin multikultural və tolerant mədəniyyətini əks etdirən müxtəlif kitablar və hədiyyələr təqdim edib.

# PREZİDENT İLHAM ƏLİYEV PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINI TƏBRİK EDİB

**Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram!

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri mövcud olmuş, ayrı-ayrı dinlər və etiqadlar qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişdir. Bu gün ölkəmiz dünyada nümunəvi tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikultural ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Təsadüfi deyildir ki, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər bizim ölkəmizdə keçirilməsi artıq ənənə halını almışdır. Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik-dini müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması Azərbaycan dövlətinin xüsusi diqqət və qayğı ilə yanaşdığı məsələlərdəndir və biz bu sahədə səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu əziz gündə sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 aprel 2017-ci il.**

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV HACI CAVAD MƏSCİDİNİN SÖKÜLMƏSİNİN DAYANDIRILMASI VƏ VƏZİYYƏTİN ARAŞDIRILMASI İLƏ BAĞLI XÜSUSİ KOMİSSİYANIN YARADILMASI BARƏDƏ TAPŞIRIQ VERİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yasamal rayonu, Abdulla Şaiq küçəsi, 79 ünvanında yerləşən Hacı Cavad məscidinin sökülməsi ətrafında yaranan vəziyyəti araşdırmaq üçün xüsusi komissiyanın yaradılması barədə tapşırıq verib.***



Bu haqda Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məlumat verib. Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yasamal rayonu, Abdulla Şaiq küçəsi, 79 ünvanında yerləşən Hacı Cavad məscidinin sökülməsi ilə bağlı yaranmış vəziyyətdən narahat olub. Dövlətimizin başçısı narazılıq edən inanclı insanların reaksiyasını nəzərə alaraq məscidin sökülməsinin dayandırılması, məsələnin hərtərəfli araşdırılması, binanın texniki vəziyyətinin tam obyektiv qiymətləndirilməsi və müvafiq təkliflərin təqdim olunması məqsədilə xüsusi komissiyanın yaradılması barədə tapşırıq verib.

Əli Həsənov qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın dini-mədəni irsinin qorunub saxlanması və inkişaf etdirilməsi, din və vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərini tənzimləyən qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, dini abidələrin, məscidlərin, ibadət evlərinin təmir və bərpa olunması, hər bir şəxsin dini ehtiyaclarının ödənilməsinə zəruri şəraitin yaradılması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edib.

Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində məhdud imkanlara baxmayaraq, sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi diqqət yetirib. Dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi Heydər Əliyevin 1994-cü ildə imzaladığı Sərəncama əsasən yenidən tikilərək 1998-ci ildə dindarların istifadəsinə verilib.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası işləri sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondu tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirilib. Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilib, habelə Heydər Məscidi kimi Cənubi Qafqazın ən böyük və müasir məscidi tikilib. Bundan başqa, Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkənin müxtəlif regionlarında çoxsaylı məscid və ibadət evlərini bərpa edib.

Ümumilikdə, əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, 2017-ci ilin əvvəlinə onların sayı 2166-ya çatıb. Hazırda ölkədə 306 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur.

İslam dini-mənəvi dəyərlərinə sıx bağlı olan Azərbaycanda dini bayramlar mütəmadi qaydada dövlət səviyyəsində qeyd olunur, dini ayinlərin icrasına hərtərəfli şərait yaradılır. Təsadüfi deyil ki, dini tolerantlığın məkanı kimi tanınan ölkəmizdə tarixdə ilk dəfə olaraq Heydər Məscidində vəhdət namazı qılınıb. Azərbaycanda heç vaxt dini və milli ayrı-seçkilik olmayıb, bütün dinlərin nümayəndələri dinc və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, bu, bizim həyat tərzimizdir, irəliyə doğru inamla getməyin ən optimal yoludur.

Azərbaycan həm də dünyada İslam mədəniyyətinin təbliği sahəsində önəmli tədbirlər həyata keçirir, islamofobiya meyillərinə qarşı açıq mübarizə aparır. Prezident İlham Əliyev xarici səfərləri çərçivəsində, beynəlxalq tədbirlərdə İslam dünyasını ləyaqətlə təmsil edir, öz çıxışlarında islamofobiyanı kəskin pisləyir, İslam mədəni irsinin və multikulturalizm ideyasının təşviqinə əməli töhfə verir. Fransanın məşhur Luvr muzeyində İslam bölməsinin yaradılması, Vatikanda İslam mədəniyyətini təbliğ edən sərginin təşkili Azərbaycanın bu istiqamətdə atdığı çox önəmli addımlardır. Təsadüfi deyil ki, Bakı şəhəri 2009-cu ildə ISESCO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan olunub, həmçinin qədim şəhərimiz Naxçıvan 2018-ci ildə ikinci dəfə Azərbaycanı bu statusda təmsil edəcək.

2017-ci ili "İslam Həmrəyliyi İli" elan edən Azərbaycan müsəlman aləmində birliyi möhkəmləndirmək, İslamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərmək üçün çoxsaylı tədbirlər təşkil edir. May ayında Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunları təkcə idman yarışı yox, eyni zamanda, bütün İslam dünyasının birlik, həmrəylik günləri olacaq.

Prezidentin köməkçisi vurğulayıb ki, son illər respublikamızda genişmiqyaslı quruculuq-abadlıq işləri həyata keçirilir, bütün sosial-iqtisadi və mədəni infrastruktur müasirləşdirilir. Bakı şəhərində ən müasir standartlara uyğun parklar, xiyabanlar, yollar salınır, yeni binalar tikilir. Bu mənada Bakının Yasamal rayonunun "Sovetski" adlandırılan ərazisində aparılan yenidənqurma işləri paytaxtımızda həyata keçirilən quruculuq-abadlıq işlərinin tərkib hissəsidir. Həmin ərazidə köhnə, istifadəyə yararsız, lazımi kommunal şəraiti olmayan, paytaxtımızın müasir görünüşü ilə uyğunlaşmayan evlər və sosial obyektlər sökülür, vətəndaşlar şəhərin başqa yerlərində yeni müasir mənzillərlə təmin olunur. Həm də əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər sakinlər tərəfindən razılıqla qarşılanır.

Əli Həsənov Azərbaycan Prezidentinin məscidin sökütüsünün dayandırılması ilə bağlı tapşırıq verdiyini və mövcud vəziyyətin araşdırılması ilə əlaqədar müvafiq komissiyanın işə başladığını nəzərə alaraq, həmin ərazidə toplaşan insanları təmkinlə davranmağa və oranı tərk edərək komissiyanın işi üçün zəruri şərait yaratmağa çağırıb.

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA: AZƏRBAYCAN BÜTÜN MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİNİ DOSTLUQ ƏSASINDA QURUR

Aprelin 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclası keçirilib.

IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva iclasda çıxış edib. Yekun iclas zamanı bir sıra vacib məsələlərə toxunan Təşkilat Komitəsinin sədri bildirib ki, Azərbaycanda çox vacib irimiqyaslı beynəlxalq tədbirlər keçirilir və hər bir belə tədbirin təşkili ən yüksək rəylər qazanır: "Biz hər bir məsələyə çox məsuliyyətlə yanaşırıq və Azərbaycanın maraqlarını, beynəlxalq imicini üstün tutaraq, ölkəmiz və xalqımız üçün layiqli nailiyyətlər əldə etməyə çalışırıq. Son illər Azərbaycanın paytaxtında bir çox böyük beynəlxalq idman yarışları – həm Avropa, həm də dünya çempionatları keçirilir. Ümumi rəyə görə bu tədbirlər təşkilati baxımdan çox yüksək səviyyədə hazırlanır və keçirilir. 2015-ci ildə Bakıda birinci Avropa Oyunları böyük uğurla keçirilmişdi. Bu Oyunlar Avropanın Olimpiya tarixində yeni səhifə açmışdı. Ümumi rəyə görə Azərbaycan dövləti birinci Avropa Oyunlarını Olimpiya Oyunları səviyyəsində təşkil etmişdir. Ümidvaram ki, IV İslam Həmrəyliyi Oyunları da mükəmməl hazırlanmışdır və keçirilmiş Oyunlar kimi tarixdə qalacaqdır".



Ölkəmizin müsəlman aləminin ayrılmaz hissəsi olduğunu qeyd edən Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva bildirib ki, Azərbaycan bütün müsəlman ölkələri ilə əlaqələrini dostluq, qardaşlıq, qarşılıqlı hörmət əsasında qurur və bu sahədə böyük uğurlara nail olub: "Əfsuslar olsun ki, bir sıra müsəlman ölkələrində müharibə gedir, yeni münaqişələr, təhlükələr yaranır, İslam dinini terrorla əlaqələndirən güclərin sayı artır. Heç bir dinin, o cümlədən İslam dininin terrorla heç bir əlaqəsi ola bilməz. Din özü-özlüyündə terroru rədd edən amildir və İslam dini sülh, mərhəmət dinidir. Hesab edirəm ki, bütün müsəlman aləminin bir araya gəlməsi, dostluq, qardaşlıq, sülh, əməkdaşlıq amilləri ətrafında birləşməsi həm böyük bir idman bayramına çevriləcək, həm də müsəlman aləmində, müsəlman ölkələri arasında əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcəkdir".

Mehriban Əliyeva qeyd edib ki, ölkəmiz artıq bütün dünyada idman məkanı kimi tanınıb: "Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafına dövlətimizin verdiyi dəstək bütün dünya tərəfindən tanınır və çox yüksək qiymətləndirilir. Aparılan siyasətin nəticəsi isə göz qabağındadır. İlk növbədə, bu, əlbəttə ki, Azərbaycan idmançılarının son illər ərzində əldə etdikləri nailiyyətlərdir. Ötən il Rio Yay Olimpiya Oyunlarında bizim idmançılarımız 18 medal qazanaraq medalların sayına görə müsəlman ölkələri sırasında birinci yeri tutmağa nail olublar. Siz yaxşı xatırlayırsınız ki, birinci Avropa Oyunları zamanı bizim yığma komandamız 56 medal qazanaraq ikinci yeri tutub. Əlbəttə, belə nəticələrlə bütün xalqımız fəxr edir və bu, Azərbaycan dövlətinin potensialının, Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir. Ümidvaram ki, IV İslam Həmrəyliyi Oyunları zamanı da idmançılarımız bizi sevindirəcəklər, bizə qələbə sevinci bəxş edəcəklər. Oyunlarda 57 ölkəni təmsil edən 3 mindən çox idmançının iştirakı gözlənilir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxta qədər keçirilən İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmayıb. Atletlər 10 gün ərzində 16 yarış məkanında 23 idman növü üzrə mübarizə aparacaqlar, Oyunların sonunda 1600 medalın təqdim edilməsi nəzərdə tutulub. Yarışlar 1000-dən çox mətbuat nümayəndəsi tərəfindən işıqlandırılacaq. IV İslam Həmrəyliyi Oyunlarını 50-dən çox ölkədə, ümumilikdə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənilir".

İclasda çıxış edən Gənclər və idman naziri, IV İslam Həmrəyliyi Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimov, Daxili İşlər naziri Ramil Usubov, Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi Vaqif Axundov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli çıxış edərək görülən işlər barədə məlumat verərək bildiriblər ki, hazırlıq işləri çərçivəsində dövlət qurumları ilə sıx əməkdaşlıq nəticəsində yüksək nailiyyət əldə olunub və Bakı IV İslam Həmrəyliyi Oyunlarının başlanmasına, həmçinin müvəffəqiyyətlə keçirilməsinə tam hazırdır.

Görülən işlərdən razılığını ifadə edən Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iclasa yekun vuraraq Azərbaycanın və paytaxt Bakının IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsinə hazır olduğunu bildirib.

# PREZİDENT İLHAM ƏLİYEV: "İSLAM DİNİ DOSTLUQ DİNİDİR"

***"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 37-ci cildi çapdan çıxıb. Çoxcildliyin bu cildi Azərbaycan Prezidenti İlham Əliyevin Təzəpir məscid kompleksinin əsaslı yenidənqurma və geniş tikinti işlərindən sonra istifadəyə verilməsi mərasimində iştirakına dair informasiya ilə başlanır.***




Bu qeydlərin sərlövhəsinə çıxarılmış fikir dövlətimizin başçısının həmin mərasimdəki nitqindən götürülüb. Prezident deyib: "Əfsuslar olsun ki, bəzi hallarda İslam dini haqqında qəsdən yalan məlumatlar yayılır, islamofobiya siyasəti aparılır. Bu gün dünyada dinlərarası dialoqdan çox danışılır və buna böyük ehtiyac vardır. Ancaq bəzi hallarda dini ayrı-seçkilik meyilləri də görünür. Biz İslam dininə qarşı aparılan kampaniyanı və əsassız ittihamları rədd edirik. İslam dini dostluq dinidir. İslam dövlətləri arasında çox geniş mənada əməkdaşlığa və dostluğa ehtiyac var".

Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığını qeyd edən Prezident vurğulayıb ki, ölkəmizdə heç vaxt milli və dini zəmində ayrı-seçkilik olmayıb, yoxdur və olmayacaq.

Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2009-cu ilin iyulundan sentyabrınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabında dövlətimizin başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına, Rumıniyaya, Rusiya Federasiyasına, Qazaxıstana səfərlərinə, habelə Suriya və Latviya prezidentlərinin Bakıya səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlarına, mətbuata bəyanatlarına, imzalanan sənədlərə dair materiallar toplanıb.

Nəşrin bu cildinə Azərbaycan Prezidentinin ölkəmizə səfər etmiş Birləşmiş Ərəb Əmirlikləri, ABŞ, İsveç, Çexiya, Almaniya, Türkiyə, Belarus və digər dövlətlərin, ATƏT, Avropa İttifaqı, TÜRKSOY təşkilatlarının, xarici şirkətlərin yüksək vəzifəli şəxslərini qəbul etməsinə dair materiallar, habelə dövlətimizin başçısının məktubları daxil edilib.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarında Ermənistanın işğalçılıq siyasətini önə çəkib, dünya ictimaiyyətini Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Bu cilddə, həmçinin Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında giriş və yekun nitqləri, Naxçıvan Muxtar Respublikasına, Hacıqabul, Quba, Qusar rayonlarına səfərlərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, təhsil, səhiyyə və sənaye müəssisələrinin, infrastruktur obyektlərinin açılışında iştirakına, paytaxtımızda aparılan abadlıq-quruculuq işləri ilə tanışlığına dair informasiyalar yer alıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 37-ci cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin materiallarından istifadə olunub.

# “İSLAM HƏMRƏYLİYİ: DİNİ VƏ MƏDƏNİ MÜXTƏLİFLİYİN HARMONİYASI”

Aprelin 12-də Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə “İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib və müqəddəs Qurani-Kərimdən ayələr oxunub.

Beynəlxalq konfransı açan QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, qədimliyi və müasirliyi özündə təcəssüm etdirən, tarix boyu Şərq ilə Qərb arasında İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzi olan Azərbaycan multikulturalizm, tolerantlıq mühitinin təşəkkül tapmasına, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam mədəniyyətinin dünyada təbliğinə böyük töhfələr verib. Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər dinlərə mənsub insanlar nadir dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətin diqqət və qayğısından yararlanırlar.

Şeyxülislam deyib ki, dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, radikalizm, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı bir dövrdə Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə söykənərək qlobal miqyasda ümumbəşəri ideyaların himayədarı kimi çıxış edir. Azərbaycanda 2016-cı ilin “Multikulturalizm İli”, 2017-ci ilin isə “İslam Həmrəyliyi İli” elan edilməsinin təqdirəlayiq olduğunu vurğulayan A.Paşazadə deyib: “Bunlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirən təşəbbüslərdir. Müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən dövlətimizin başçısının “İslam Həmrəyliyi İli” ideyası yalnız İslam dünyası daxilində deyil, İslam dini ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir. Növbəti İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi də bu məramın təzahürüdür. Azərbaycan bütün dünyaya nümayiş etdirir ki, dini-mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür”.

Xalqımızın, dövlətimizin bu uğurlara Ulu Öndər Heydər Əliyevin dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, vətəndaşlarımızı milli birlik, mənəvi vəhdət ideyaları ətrafında bir araya gətirən xilaskar azərbaycançılıq məfkurəsi sayəsində imza atdığını bildirən Allahşükür Paşazadə vurğulayıb ki, Prezident İlham Əliyev qətiyyətli siyasi iradəsi sayəsində Azərbaycanı multikulturalizm, İslam həmrəyliyi ideyalarının mərkəzində duran bir ölkə kimi gündəmə gətirməklə beynəlxalq aləmdə böyük siyasi-mənəvi uğura nail olmaqdadır. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın ölkəmizdə və beynəlxalq müstəvidə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi ölkəmizin bu istiqamətdə söz sahibinə çevrilməsinə ali xidmətdir.

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev öz çıxışında bu sözləri söyləyib: “Multikulturalizm İli”ndə Azərbaycan özünü dünyaya tanıtmaq istiqamətində, eyni zamanda bir daha özünü tanımaq istiqamətində çox işlər gördü və bu təşəbbüsün bəhrələrini biz hələ zaman-zaman görəcəyik. Avropada multikulturalizmin real iflası fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə gedən multikultural hərəkat, əslində, buna qarşı mənəvi, intellektual çağırış oldu və bu bədbin fonun qarşılığında biz Azərbaycanda nikbin bir qütbün formalaşmasının şahidi olduq. Bunun hərəkətverici qüvvəsi isə Prezident İlham Əliyev oldu”.

“Multikulturalizm İli”nin məntiqi davamı kimi, 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsinin bir çox mətləblərdən xəbər verdiyini deyən Kamal Abdullayev bildirib ki, “Azərbaycanda “Multikulturalizm İli”ndə əldə olunmuş təcrübədən, əlbəttə, “İslam Həmrəyliyi İli”ndə də istifadə ediləcək. Azərbaycandakı multikultural hərəkat bir katalizator rolunu da oynadı və dünyanın müxtəlif ölkələrində, intellektual dairələrində bu prosesə dayaq və dəstək oldular. Azərbaycan multikulturalizmi bir model kimi bu ölkələrdə öyrənilməyə başlandı. Bu gün Avropanın 15 ölkəsində “Azərbaycan multikulturalizmi” fənni tədris edilir”.



Dövlət müşaviri deyib ki, bu gün Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi “Azərbaycan multikulturalizmi” dərsliyinin yaradılması üzərində çalışır. Dərslikdə Azərbaycan multikulturalizminin ən müxtəlif istiqamətlərdən işıqlandırılması nəzərdə tutulur. Bu fənni tədris edən bir çox xarici ölkə müəllimləri Azərbaycan multikulturalizminin öz ölkələrinin multikulturalizmi ilə müqayisə olunmasını xahiş edirlər. Bu, çox faydalı və perspektivli nəticələrə gətirən bir məqamdır.

“Bu yaxınlarda Azərbaycan multikulturalizminin bugünkü durumuna verilən qiymət İsveçrənin Bern şəhərində özünü göstərdi. Dinlər Evində Azərbaycan və İsveçrə multikulturalizmlərinin müqayisəli təhlilinə həsr olunmuş geniş beynəlxalq konfrans keçirildi. Multikultural modellərin müqayisəsi, əlbəttə ki, xalqların, dövlətlərin canında, potensialında olan başəri dəyərlərin bir daha üzə çıxarılmasına imkan yaradır. Bu istiqamətdə bizim dünyaya deyiləsi sözümüz çoxdur”, - deyə Dövlət müşaviri vurğulayıb.

Konfransın çox mühüm və aktual məsələyə həsr olunduğunu deyən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, Prezident İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsi çox mühüm hadisədir və bunun böyük siyasi, iqtisadi, mənəvi və ideoloji əhəmiyyəti var. Bu gün bəşəriyyətin qarşısında duran ən mühüm məsələlərdən biri planetimizi, sülhü qorumaq, dünyadakı mövcud dinlərin və xalqların inkişafına hərtərəfli dəstək verməkdir. “Bu gün dünyamız çox təhlükəli və gərgin dövr yaşayır – çoxsaylı münaqişələr, müharibələr. Regionumuzda da münaqişələr var. Ermənistanın Azərbaycana qarşı təcavüzü uzun müddət davam edən münaqişədir. İndi 67 ölkənin ərazisində silahlı toqquşmalar baş verir. Bu münaqişələr nəticəsində öz yurd-yuvalarını tərk edən insanların sayı BMT-nin statistikasına görə 65 milyon nəfəri ötüb. Bunun bir milyon nəfəri Ermənistanın təcavüzü nəticəsində öz torpaqlarını tərk etmək məcburiyyətində qalan Azərbaycan vətəndaşlarıdır. Eyni zamanda, dünyada olan müharibə ocaqlarının, həmçinin törədilən terror əməllərinin böyük hissəsi müsəlman ölkələrinin payına düşür”, - deyə M.Qurbanlı vurğulayıb.

“İslam dünyasına qarşı çıxan dairələr islamofobiya yaradaraq başqa ərazilərdə İslamın yayılmasına mane olurlar, İslamı terrora bağlamağa cəhd edirlər. Bu, İslam dünyasını daha sıx birləşməyə sövq edən amildir. İslam həmrəyliyi müasir dünyamızda yaranmış gərginliyin aradan qaldırılmasında çox mühüm rol oynaya bilər. Məhz buna görə Prezident İlham Əliyevin “İslam Həmrəyliyi İli” ilə əlaqədar irəli sürdüyü fikirlər Azərbaycana, ölkəmizdəki dini konfessiyalara, müsəlman aləmi ilə digər konfessiyalar arasında münasibətlərə aid olmaqla bərabər, eyni zamanda bütün dünyada gedən proseslərə təsir göstərəcək bir hadisədir. Əgər dünyada sülh, əmin-amanlıq, dünyanı nüvə müharibəsi təhlükəsindən uzaqlaşdırmaq istəyiriksə, biz müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların harmoniyasına nail olmalıyıq. İslam həmrəyliyi bizim üçün yol xəritəsidir. Biz bu yolla uğurla irəliləməliyik. Qafqaz Müsəlmanları İdarəsi, dövlət qurumları bu tədbirləri təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da beynəlxalq miqyaslı tədbirlər formatında keçirmək niyyətindədir. Əminəm ki, bu tədbirlər, atılan addımlar bütövlükdə İslam həmrəyliyinə, sülhə böyük töhfə verəcək”, – deyə M.Qurbanlı əlavə edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət daşıyır. Çünki İslam həmrəyliyi müasir dünyamızda mühüm məsələlərdən biridir. İslam həmrəyliyinə mədəni və dini müxtəlifliyin harmoniyası prizmasından yanaşmaq məsələnin aktuallığını xüsusilə artırır. Bu yanaşma İslam daxilindəki anlaşılmazlıqların, eləcə də dinlərarası ziddiyyətlərin aradan qaldırılmasına öz töhfəsini verəcək.

Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda “İslam Həmrəyliyi İli” elan etməsi, Bakıda IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasının ölkəmizdə İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində aparılan işlərdən xəbər verdiyini vurğulayan G.Əfəndiyeva yenicə fəaliyyətə başlamış Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dövlətlər arasında yalnız mədəni həmrəyliyin yox, eləcə də digər sahələr üzrə əməkdaşlığın möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacağını qeyd edib. Onun sözlərinə görə, bu beynəlxalq təşkilat öz fəaliyyətində İslam həmrəyliyini daim dəstəkləyəcək.

Milli Məclisin elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli də çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi İli” elan etməsi ilk növbədə ölkə daxilində bu istiqamətdəki multikultural dəyərlərin, tolerantlığın, dinlərarası etimadın və həmrəyliyin daha da möhkəmlənməsinə töhfə verməklə yanaşı, eyni zamanda qlobal xarakter daşımaqla, bəşəriyyəti həmrəyliyə, birliyə, sülhə, əməkdaşlığa çağırır. Akademik deyib: “Bu böyük işin ölkəmizdə möhkəm təməlləri Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən formalaşdırılıb. Məhz Ulu Öndərin müstəqilliyin ilk illərində ölkəmizdə formalaşdırdığı din-dövlət münasibətləri, dinlərə, təriqətlərə, mədəniyyətlərə obyektiv elmi baxışın, ədalətli münasibətin hökm sürməsi bugünkü multikultural, həmrəylik siyasətinin də möhkəm təməllərini təşkil edir. Ulu Öndərin böyük dəstəyi ilə 1998-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən “İslam Sivilizasiyası Qafqazda” adlı beynəlxalq simpozium müstəqilliyini bərpa etmiş ölkələrin həyatında bu istiqamətdə atılmış birinci böyük addım idi və o, bizim gələcək fəaliyyətimizin strateji əsaslarını müəyyən etdi”.

İslam həmrəyliyinin hər şeydən əvvəl İslam maarifçiliyi demək olduğunu bildirən İ.Həbibbəyli qeyd edib ki, İslam maarifçiliyi geniş anlayış olmaqla, özündə İslam təliminin mahiyyətindəki elmi ideyalar, mənəvi zənginlik, əxlaqi kamillik ilə bağlı təlimləri üzə çıxarmaq, cəmiyyətə yenidən elmi əsaslarla çatdırmaq vəzifəsini qarşıya qoyur. İslam maarifçiliyi, eyni zamanda İslam təliminin bu günün reallığı əsasında obyektiv şəkildə tətbiqini, şərhini və ümumiləşmiş nəticələrin elmi ictimaiyyətə çatdırılmasını tələb edir.

“Prezident İlham Əliyevin İslam həmrəyliyi haqqında bu gün qarşıya qoyduğu vəzifə İslamın fəlsəfəsindəki, konsepsiyasındakı inkişafla, birliklə,

davamı səh. 5

# "İSLAM HƏMRƏYLİYİ: DİNİ VƏ MƏDƏNİ MÜXTƏLİFLİYİN HARMONİYASI"

əvvəli səh. 4 harmoniya ilə bağlı olan keyfiyyətləri sistemli şəkildə öyrənmək, formalaşdırmaq, dünya dillərində bəşəriyyətə çatdırmaq və planetimizin sülhə, birgəyaşayışa, həmrəyliyə gəlib çatmasına Azərbaycanın töhfəsini verməkdən ibarətdir", - deyə İ.Həbibbəyli vurğulayıb.

Bu gün dünyanı ərazi iddiaları, iqtisadi və hərbi maraqlar, o cümlədən etnik-dini ayrı-seçkiliyə əsaslanan siyasətlər nəticəsində bir çox çağırışların təhdid etdiyini deyən Milli Məclisin sədr müavini Bahar Muradova bildirib ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti İlham Əliyev qəbul etdiyi vacib qərarlar vasitəsilə ötən il və bu il bizim bu məsələlərə diqqət yetirməyimiz üçün kifayət qədər imkan yaradıb. Bu imkanlar bizi dünyanın üzləşdiyi çətin durumdan çıxması üçün mövqelərimizi birləşdirmək, fikir mübadiləsi aparmaq və bu çağırışların qarşısını almaq istiqamətində səy göstərməyə vadar edir. Bu çağırışlar dünyamızı xaosa sürükləyən, müstəqil dövlətlərin konstitusion əsaslarını sarsıdan, xalqların və millətlərin minilliklər boyu əldə etdiyi nailiyyətləri bir anda yerlə-yeksan edən siyasətlərə, onların mahiyyətinə yenidən baxmağa imkan verir: "Bu gün insanlığı kataklizmə sürükləyən çağırışlar, təhdidlər var. Azərbaycan bu çağırışların qarşısına İslam həmrəyliyinin, multikultural dəyərlərin təbliği, dini, etnik, milli dözümlülük, bir ərazini bölüşən müxtəlif xalqların və millətlərin nümayəndələrinə, onların mədəniyyətlərinə hörmət siyasəti ilə çıxır. Azərbaycanın dünyaya verdiyi mesajların mahiyyətində bu amillər dayanır".

Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə bildirib ki, ölkəmizin belə bir missiyanı öz üzərinə götürməsi, 50-dən artıq İslam ölkəsi arasında məhz Azərbaycanın bu məsələlərə bu cür yanaşması Prezident İlham Əliyevin, xalqımızın bu həmrəyliyə böyük önəm verdiyini bir daha sübut edir. Həmrəylik məsələsi Azərbaycanın mənəvi dəyərlərindən irəli gəlir. "Dünyada baş verən hadisələrə nəzər salsaq görərik ki, artıq qütbləşmə prosesləri daha da kəskinləşib və bundan əziyyət çəkən daha çox İslam



ölkələridir. İslam ölkələri təkcə mənəvi dəyərlərinə, milli keyfiyyətlərinə görə deyil, həmçinin İslamla, o cümlədən ərazilərində olan təbii sərvətlərlə bağlı bu əziyyətləri çəkir. Bu gün təbii sərvətlərə görə illər ərzində qurulmuş sivilizasiyası olan ölkələrin başına hansı oyunların gətirildiyini görürük", - deyə S.Novruzov əlavə edib.

Komitə sədri vurğulayıb ki, bu gün Azərbaycan İslam ölkələri arasında əlaqələrin genişləndirilməsi, İslam həmrəyliyinin gücləndirilməsi ilə bağlı mövqeyini ortaya qoyub. Prezident İlham Əliyevin dediyi kimi, IV İslam Həmrəyliyi Oyunları zamanı bir çox İslam ölkələrinin idmançıları Bakıda bir-birinin əlini sıxacaqlar. Hesab edirik ki, bir çox İslam ölkələrinin rəhbərləri də bir-birinin əlini sıxmaqla bu həmrəyliyi göstərməli və yaratmalıdırlar.

QMİ Elmi-Dini Şurasının sədri, akademik Vasim Məmmədəliyev də öz çıxışında bildirib ki, İslam dünyasının hazırkı vəziyyətini nəzərə alsaq, Prezident İlham Əliyevin 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Sərəncamının olduqca aktual xarakter daşıdığını deyə bilərik. Bu gün İslam dünyası ən çox həmrəyliyə ehtiyac duyur. Təəssüf ki, hazırda İslam dünyası tarixin heç bir dövründə olmadığı qədər təhlükə ilə üz-üzədir. Məzhəbçiliyə və firqəçiliyə əsaslanan düşüncələrlə sadə insanların zehni zəhərlənir. Təəssüf ki, bu düşüncələr bəzi ölkələrdə praktik zəmində də müsəlmanlar arasında qarşıdurma ilə nəticələnir. Müsəlman ölkələrində baş verənlər məhz məqsədyönlü şəkildə önə çəkilən belə mənfur fikirlərin həyata keçirilməsindən ibarətdir.

Tədbirdə İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRSİCA) baş direktoru Halit Eren, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Katolik Kilsəsinin Azərbaycandakı nümayəndəsi Vladimir Fekete, Azərbaycan Respublikası Alban-Udi Xristian İcmasının sədri Robert Mobili, QMİ-nin Elmi-Dini Şurasının üzvü Qəzənfər Paşayev, DQİDK-nın sədr müavini Gündüz İsmayılov da çıxış edərək bildiriblər ki, qloballaşma dövründə dini, irqi ayrı-seçkilik, ksenofobiya, islamafobiya mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid doğurur, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Onun qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın rolunu xüsusi vurğulamaq lazımdır. Qeyd olunub ki, Prezident İlham Əliyevin humanist və sülhsevər siyasəti sayəsində Bakı dünyada multikulturalizm mərkəzi olaraq tanınır. Şərq ilə Qərb mədəniyyətlərinin qovuşuğunda yerləşən bu gözəl şəhərdə insanlıq və mədəniyyət adına çox dəyərli tədbirlər görülür. Bu konfrans da dünyada ayrı-seçkiliyə, irqçiliyə qarşı dəyərli töhfədir.

Tədbirə yekun vuran QMİ sədri Allahşükür Paşazadə konfransın iştirakçıları adından tədbirin yüksək səviyyədə keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

# "İSLAM HƏMRƏYLİYİ İLİ-2017: REALLIQLAR, PERSPEKTİVLƏR" MÖVZUSUNDA RESPUBLİKA ELMİ-METODİK KONFRANSI KEÇİRİLİB



***Aprelin 25-də Bakı Dövlət Universitetində (BDU) "İslam Həmrəyliyi İli-2017: reallıqlar, perspektivlər" mövzusunda respublika elmi-metodik konfransı keçirilib.***

Tədbirdə BDU-nun rektoru, akademik Abel Məhərrəmov Prezident İlham Əliyevin 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında imzaladığı müvafiq Sərəncamın böyük əhəmiyyət daşıdığını söyləyib. Vurğulanıb ki, ölkəmiz İslam Əməkdaşlıq Təşkilatı, ISESCO, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub, qlobal əhəmiyyətli mədəni forumların təşkilatçısı kimi çıxış edib.

Akademik A.Məhərrəmov son illər ölkəmizdə müxtəlif dinlərin həmrəyliyi istiqamətində uğurlu siyasətin aparıldığını, keçmiş sovet dövründə dinlə bağlı sərt qadağaların olduğunu söyləyib. Rektor həmin dövrdə Azərbaycanda 20-dək məscidin fəaliyyət göstərdiyi halda hazırda onların sayının 2000-i ötdüyünü, həmin məscidlərin 300-dən çoxunun tarixi-mədəni abidə kimi qorunduğunu xatırladıb.

Plenar iclasda çıxış edən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın, o cümlədən bölmə iclaslarına təqdim edilən məqalələrin əhəmiyyətindən, İslam dünyasında böyük nüfuza malik olan Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsindən danışıblar.

Sonra BDU-nun ilahiyyat fakültəsinin dekanı, akademik Vasim Məmmədəliyev "İslam həmrəyliyi müasir dünyanın ən zəruri tələblərindən biridir" mövzusunda məruzə ilə çıxış edib.

Altı bölmədə işini davam etdirən konfransda 200-dən çox məruzə dinlənilib.



# İSTANBULDA XX AVRASİYA İQTİSADİ ZİRVƏ TOPLANTISI BAŞ TUTUB









Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə aprelin 5-6-da İstanbulda keçirilən XX Avrasiya İqtisadi Zirvə toplantısında Azərbaycan geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunub.

Toplantıda dövlət və hökumət rəsmiləri, diplomatlar, beynəlxalq təşkilatların təmsilçiləri, KİV və QHT nümayəndələri iştirak ediblər.

Türkiyənin dövlət himninin səsləndirilməsi ilə başlayan toplantıda əvvəlcə Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin fəaliyyətini əks etdirən film göstərilib. Filmdə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətlərinə dair kadrlar da yer alıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin toplantı iştirakçılarına təbrik məktubunu oxuyub. Azərbaycanın energetika naziri Natiq Əliyevin sədrliyi ilə açılışı olan Zirvə toplantısında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suverin məruzəsi dinlənilib. O, Zirvə toplantısının önəmindən, iştirakçıların inkişaf və tərəqqiyə, separatizmə və terrorçuluğa qarşı mübarizəyə böyük önəm verməsindən danışıb. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasının əhəmiyyətindən bəhs edən məruzəçi vurğulayıb ki, Zirvənin bir panelinin İslam həmrəyliyi mövzusuna həsr edilməsi Azərbaycan Prezidentinin bu təşəbbüsünə dəstəkdir.

Rəsmi hissədə Makedoniya Respublikasının Prezidenti Georgi İvanov, Albaniya Respublikasının Prezidenti Buyar Nişani, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Türkiyə Respublikası Baş nazirinin müavini Mehmet Şimşək, BMT Sivilizasiyalar Alyansının rəhbəri Nassir Əbdüləziz Əl-Nasser, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, İstanbul Ticarət Palatasının sədri İbrahim Çağlar və İstanbul Hazır Geyim İxracatçıları Birliyinin sədri Mustafa Gültəpə çıxış ediblər. Çıxışlarda ölkələr arasında əməkdaşlıq imkanları və tərəqqiyə yol açan layihələrdən, o cümlədən inkişaf amilini əngəlləyən məqamlardan bəhs olunub.

Toplantı ikinci iş gününü "İslamla həmrəylik ruhu çərçivəsində təcavüzə və terrora qarşı dinlərin təsiri" və "İnsanlıq bir yol ayrıcında" mövzularında panellərlə davam etdirib.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin moderatorluğu ilə keçirilən birinci paneldə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Salman Musayev, İstanbuldakı Fənər Rum Patriarxı birinci Varfolomey, İstanbul Küçükkuyu bələdiyyəsinin sədri Çingiz Balkan və başqaları çıxış ediblər.

Azərbaycanda həyata keçirilən dini siyasətin bütün istiqamətlərinin ədalət prinsipləri üzərində kökləndiyini diqqətə çatdıran Mübariz Qurbanlı son illər ayrı-ayrı ölkələrdə artan münaqişələrin və terror aktlarının acı nəticələrinə toxunub. O, təəssüflə qeyd edib ki, silahlı qarşıdurmalardan və insanlıq əleyhinə törədilən digər cinayətlərdən daha çox zərər çəkən İslam ölkələri və müsəlman xalqlarıdır. Erməni terrorizmindən ağır zərbələr alan Azərbaycan terrorizmin bütün formalarını kəskin şəkildə pisləyir və onunla mübarizədə qətiyyətli addımlar atılmasının tərəfdarıdır. Ölkəmizdə təşkil olunan beynəlxalq forumlarda və konfranslarda dünya birliyinə edilən çağırışların təsir imkanlarından danışan Komitə sədri vurğulayıb ki, bütün bu proseslərin nəticəsi olaraq son illər Azərbaycan dünyanın fikir və düşüncə mərkəzinə çevrilib.

Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsinin əhəmiyyətindən bəhs edən Mübariz Qurbanlı ölkəmizdə bütün dinləri təmsil edən insanların azad və rahat şəkildə ibadət etmələrinə, birgə yaşamasına və bərabərhüquqlu fəaliyyətinə göstərilən dövlət qayğısı barədə də danışıb.

"İnsanlıq bir yol ayrıcında" mövzusunda keçirilmiş ikinci paneldə isə Makedoniya Respublikasının Prezidenti Georgi İvanov, Albaniya Respublikasının Prezidenti Buyar Nişani, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Şimali Kiprin başçısı Mustafa Akıncı, Türkiyənin 9-cu Prezidenti Abdullah Gül, Xorvatiyanın keçmiş Prezidenti İvo Josipoviç, Latviyanın sabiq Prezidenti Valdis Zatlers və digərləri çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, dünyada sülhə, əmin-amanlığa, inkişafa və tərəqqiyə nail olmaq üçün mövcud münaqişələrə son qoyulmalı, terror aktlarının qarşısı alınmalı, qaçqın və məcburi köçkünlərin öz yurdlarına dönməsi üçün münbit şərait yaradılmalıdır. Bunun üçün mövcud problemlərə, münaqişə və qarşıdurmalara səbəb olan məsələlər dialoqlar, danışıqlar və müzakirələr əsasında həll edilməlidir. Problemlərə beynəlxalq hüququn normalarından və gerçəkliklərdən kənar prizmadan yanaşmaq daha ciddi problemlərin ortaya çıxmasına gətirib çıxarır. Belə davam edərsə, bu məqam sülh və sabitliyin əngəllənməsinə təsir edən amil kimi bundan sonra da öz təhlükəsini saxlayacaq.

# SOCAR-da "İslam Həmrəyliyi İli" ilə əlaqədar görüş olub

***Aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı SOCAR-da olub, şirkətin rəhbər heyəti və əməkdaşları ilə görüşüb.***

Tədbiri giriş sözü ilə açan SOCAR-ın prezidenti Rövnəq Abdullayev Azərbaycan xalqının qədim zamanlardan dini tolerantlıq ənənələrinə malik olduğunu bildirib, qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən dövlətçilik siyasətinin nəticəsi olaraq ölkəmiz dünya miqyasında millətlərarası və dinlərarası dözümlülük, tolerantlıq nümunəsinə çevrilib. Bu gün Azərbaycanda bütün etnokonfessional birliklərin fəaliyyəti üçün əlverişli şərait yaradıldığını vurğulayan Rövnəq Abdullayev Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlərdən söz açıb. Azərbaycan iqtisadiyyatının lokomotivi olan SOCAR-ın dini tolerantlığın qorunmasına verdiyi töhfələrdən bəhs edən Rövnəq Abdulllayev şirkətin fəaliyyət göstərdiyi xarici ölkələrdə də bu konsepsiyanın təbliğ olunması üçün həyata keçirdiyi tədbirləri diqqətə çatdırıb.

DQİDK-nın sədri Mübariz Qurbanlı tədbirdə çıxış edərək ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətləri modelinin dünya üçün nümunəvi xarakter daşıdığını bildirib. Mübariz Qurbanlı 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin milli-mənəvi dəyərlərimizə verilən ən yüksək qiymət olduğunu diqqətə çatdırıb. Komitə sədri Azərbaycanda olan tolerant və multikultural mühitdən bəhs edərkən, bunun dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu söyləyib.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov ölkəmizdə dini tolerantlığın qorunmasının zərurətini vurğulayaraq xaricdən təsir göstərən radikal təriqətlərin bəzən din qiyafəsində çıxış etdiyini, belə qüvvələrlə mübarizədə İslam həmrəyliyinin böyük rol oynadığını söyləyib. Azərbaycanın bir İslam ölkəsi kimi tolerantlıq prinsipinə daim sadiq qaldığını diqqətə çatdıran S.Heydərov gənclər arasında milli-mənəvi dəyərlərin, o cümlədən dini tolerantlığın təbliği üçün Komitə tərəfindən görülən işlərdən ətraflı bəhs edib.



# RADİKALİZM MÜASİR GƏNCLİYİ DÜNYƏVİLİKDƏN, ELMİ DÜŞÜNCƏ VƏ AXTARIŞLARDAN UZAQLAŞDIRIR

Aprelin 21-də Qobustanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.

Gənclər mərkəzində keçirilən konfransda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, RİH-in başçısı Adil Məmmədov, Qafqaz Müsəlmanları idarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi Hacı Mərəhməd Mustafayev, eləcə də bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərləri, dini işlər üzrə komissiyanın üzvləri, YAP rayon təşkilatının rəhbərliyi, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov konfransı açaraq dini radikalizmlə mübarizənin aktuallığından, xüsusilə gənclər arasında Azərbaycanda mövcud olan dini tolerantlıq, multikulturalizm ənənələrinin təbliği sahəsində görülən işlərdən, İslam dininin dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətindən, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqinin zəruriliyindən danışıb, bu baxımdan konfransın xüsusi önəm daşıdığını qeyd edib. İcra hakimiyyətinin başçısı Prezident İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsinin Azərbaycan dövlətinin dünyaya, xüsusən



də İslam ölkələrinə xoş niyyətli yeni mesaj olduğunu diqqətə çatdırıb. Bildirilib ki, İslam dünyasının bu gün həmrəyliyə, birliyə, sabitliyə çox böyük ehtiyacı olduğu bir vaxtda belə bəşəri ideyanın irəli sürülməsi tarixən dünyanın mədəni mərkəzlərindən biri olan Azərbaycanın İslam dünyasına verdiyi töhfədir. Artıq dünyada "İslam Həmrəyliyi İli"nin Azərbaycan nümunəsi modeli formalaşmaqdadır.

Konfransda DQİDK-nın sədri Mübariz Qurbanlı diqqəti İslam dininin ümumbəşəri dəyərlərinə cəlb edərək, İslam daxilindəki qrupların, cərəyanların onun inkişafına yaratdığı ciddi maneələrdən bəhs edib. Vurğulayıb ki, radikalizm bu gün İslamdakı elmlik, dünyəvilik prinsiplərinə qarşı bir təxribatdır. Radikalizm müasir gəncliyi dünyəvilikdən, elmi düşüncə və axtarışlardan uzaqlaşdırır. Nəticədə isə fanatizmin acı təzahürləri üzə çıxır. Komitə sədri dünya əhalisinin 25 faizini müsəlmanların təşkil etdiyini vurğulayaraq, dünya neft ehtiyatının 62 faizinin, təbii qazın 60 faizinin, digər yeraltı sərvətlərin böyük bir hissəsinin bu ölkələrdə olduğuna diqqəti cəlb edib və təəssüflə bildirib ki, müsəlman ölkələri elmi-texniki cəhətdən hələ də geridə qalır, bu sahədə başqalarından asılıdır. Qeyd olunub ki, xurafat, cahillik, dini radikalizm, müəyyən dairələrin İslamı siyasiləşdirmək cəhdlərinin yaratdığı fəsadlar bunun əsas səbəbləridir. Təsadüfi deyil ki, bugünkü münaqişələrin 70-80 faizi müsəlman ölkələrinin ərazilərində baş verir.

Belə bir şəraitdə, xüsusən din amilindən siyasi vasitə kimi istifadə olunduğu bir dövrdə tolerantlığın, multikultural dəyərlərin Azərbaycan modelinin öyrənilməsinin və bundan yararlanmağın, habelə İslam həmrəyliyinin bəşəriyyət üçün həyati əhəmiyyət daşıdığı diqqətə çatdırılıb.

Sonra Rayon İcra Hakimiyyətinin iclas zalında konfransın "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda ikinci mərhələsi olub. Rayonun fəal gənclərinin iştirakı ilə keçirilən tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Rayon Gənclər və İdman İdarəsinin rəisi Qadir Əkbərov çıxış ediblər.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizənin, dindarlar, xüsusilə gənclər arasında Azərbaycanda mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviq olunmasıdır. G.İsmayılov gənclər arasında dini maarifləndirmənin gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd edib ki, bu sahədə bölgələrdə dini maarifçilik işləri daha da gücləndirilir, gənclər arasında dini savadlılığın artırılması istiqamətində tədbirlər görülür.

Gənc nəslin, eləcə də uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin rolunu vurğulayan G.İsmayılov bu istiqamətdə ardıcıl işlərin həyata keçirildiyini, milli-mənəvi dəyərlərə varislik və müasirlik prizmasından yanaşılmasının zəruriliyini bildirib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Dövlət Komitəsinin sədri Qobustanda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 21-də Qobustandakı Gənclər mərkəzində Qobustan, Şamaxı, Ağsu və İsmayıllı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan öncə DQİDK-nın sədri Mübariz Qurbanlı və Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Ümummilli Lider Heydər



Əliyevin abidəsini ziyarət edərək önünə çiçəklər qoyublar.

Qəbula gələn vətəndaşların müraciəti əsasən dini icmaların dövlət qeydiyyatı, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların fəaliyyəti, Quran kurslarının təşkili və sair məsələlərlə bağlı olub.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan müraciətlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Qəbula gələnlər yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüskarı olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "APREL DÖYÜŞLƏRİ ZAMANI AZƏRBAYCAN ORDUSU ERMƏNİLƏRƏ BÖYÜK DƏRS VERDİ"



Aprel döyüşləri bizim böyük tarixi qələbəmiz, Ermənistanın isə həm siyasi, həm iqtisadi, həm də psixoloji cəhətdən məğlubiyyətidir. Həmin döyüşlərədək Ermənistan siyasi rejimi tərəfindən belə bir mif yaradılmışdı ki, işğalçı dövlətin ordusu və onların yaratdığı istehkamlar keçilməzdir. Lakin aprel döyüşləri bunun sadəcə mif olduğunu sübuta yetirdi.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyası icra katibinin müavini Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, bu döyüşlər zamanı Azərbaycanın şanlı ordusu ermənilərə böyük dərs verdi. Eyni zamanda, ordumuzun 2016-cı il aprelin 2-dən 5-dək davam edən uğurlu əks-hücum əməliyyatları ölkəmizə yüksək hərbi və siyasi üstünlüklər qazandırdı.

"Azərbaycan xalqı ermənilərə və bütün dünyaya necə hərbi qüvvəyə malik olduğunu, ordumuzun fiziki və mənəvi gücünü nümayiş etdirdi", - deyən M.Qurbanlı qeyd edib ki, dövlətimizin başçısının Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə keçirdiyi görüşdə də söylədiyi kimi, aprel döyüşləri demək olar Ermənistanın ideoloji əsaslarını dağıtdı, Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tam şəkildə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Həmçinin siyasi baxımdan düşmən bir daha şahid oldu ki, Azərbaycan əzəli torpaqlarını qısa müddət ərzində geri qaytarmağa qadirdir.

Dövlət Komitəsinin sədri deyib ki, aprel döyüşləri həm də Azərbaycanın öz torpaqlarını azad etmək uğrunda apardığı ədalətli mübarizə idi: "Azərbaycan BMT-yə daxil olanda ölkəmizin sərhədlərini bütün dünya qəbul edib. Ona görə də Azərbaycanın işğal olunmuş bütün əraziləri BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə uyğun olaraq azad edilməlidir. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində qeyd edilir ki, hər hansı bir ölkə işğala, təcavüzə məruz qalarsa, öz ərazisini silahla, güclə azad etmək hüququna malikdir. Bu, Azərbaycan xalqının haqqıdır, hüququdur. Biz haqq uğrunda mübarizə aparırıq. Prezidentimizin çox gözəl ifadəsi var: "Erməni əsgəri işğal olunmuş ərazilərdə nə gəzir ki, orada ölsün?". Erməni əsgəri torpaqlarımızdan rədd olmalıdır ki, xalqımız ərazilərimizin üzərində suverenliyini bərpa etsin. Bu haqq uğrunda da mübarizə aparırıq".

M.Qurbanlı qeyd edib ki, Azərbaycan ordusunun kifayət qədər gücü, qüdrəti var. Azərbaycan xalqının orduya, Prezident İlham Əliyevin siyasətinə böyük dəstəyi var. Çox qürurverici haldır ki, hazırda Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının işğaldan azad edilmiş hissəsində Azərbaycan bayrağı dalğalanır, o torpaqlara bu gün Azərbaycan Ordusu nəzarət edir. Allah ötən ilin aprelində yüksək şərəf və ləyaqətlə Vətənimiz uğrunda şəhid olan qəhrəman oğullarımıza rəhmət eləsin!

# Fransız yazıçısı Dövlət Komitəsinə təşəkkür məktubu ünvanlayıb

Fransız yazıçısı, "Beynəlxalq Reyn Dərnəyi"nin prezidenti Jerar Kardon Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya təşəkkür məktubu ünvanlayıb.

Məktubda Jerar Kardon yanvar ayının 17-də Komitə sədri Mübariz Qurbanlının yazıçını və xanımı Nikolası səmimi qarşıladığına görə minnətdarlığını ifadə edib. O bildirib ki, dini məsələlərə münasibətdə Azərbaycan hökumətinin tolerant ruhlu və açıq fikirli olmasından təsirlənib. Yazıçı ölkəmizdəki dini tədrisi yüksək qiymətləndirib. O, Azərbaycanda qadınlar və kişilər arasında hüquq bərabərliyinin təmin olunmasını demokratiya və mənəviyyatın göstəricisi kimi dəyərləndirib.



Yazıçı məktubunda ölkəmizə növbəti səfərləri zamanı Dövlət Komitəsində yenidən görüş keçirməkdən məmnunluq hissi duyacağını da vurğulayıb.

Qeyd edək ki, yanvarın 17-də Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan qadını barədə bədii əsər yazmaq məqsədi ilə ölkəmizdə səfərdə olan fransız yazıçısı Jerar Kardonu qəbul edib.

M.Qurbanlı ölkəmizdə mövcud olan dövlət-din münasibətlərindən bəhs edib, Azərbaycanda dini durumun sabit olduğunu, müxtəlif konfessiyaların sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərdiklərini bildirib. O, həmçinin Azərbaycanda qadınların hüquqlarının yüksək səviyyədə qorunmasından, onların ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmələrindən danışıb.

Fransalı yazıçı qadınlarla bağlı belə bir layihəni artıq bir sıra ölkələrdə həyata keçirdiyini deyib. O bildirib ki, bu əsəri yazmaqda məqsədi həmin ölkələri qadınlar vasitəsi ilə təqdim etməkdir. Burada qadınların həyatı, ailədə, cəmiyyətdə rolu, onların hüquqlarının qorunması və digər məsələlər öz əksini tapacaq.

# "FİTNƏ" SƏNƏDLİ FİLMİ MAARİFLƏNDİRİCİ ƏHƏMİYYƏTƏ MALİKDİR




"Fitnə" sənədli filmi gənclərin dini radikalizmin təsirlərindən qorunmaları baxımından böyük maarifləndirici əhəmiyyətə malikdir.

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı aprelin 8-də Bakı Slavyan Universitetində (BSU) keçirilən "Fitnə" sənədli filminin təqdimatı zamanı deyib.

M.Qurbanlı qeyd edib ki, film gənclərin radikal dini cərəyanların təsiri altına düşməmələri və dini radikalizmin fəsadlarını cəmiyyətin bütün təbəqələrinə çatdırmaq məqsədilə hazırlanıb. Radikalizmin dini, psixoloji, hüquqi, siyasi və mənəvi aspektlərindən danışan M.Qurbanlı bu təmayüllə mübarizədə gənclərə tövsiyələrini verib. O, filmin davamı olaraq "Şəhadət" adlı ekran əsərinin lentə alınacağını diqqətə çatdırıb.

BSU-nun rektoru, professor Nurlana Əliyeva belə maarifləndirici filmlərin çəkilməsinin və müvafiq mövzuda tədbirlərin təşkilinin əhəmiyyətini vurğulayıb. Rektor ölkəmizi tərk edib yad ölkələrə döyüşə gedən gəncləri Vətənimizin keşiyində durmağa çağırıb.

Sonda tələbələrin "Fitnə" sənədli filmi barədə fikirləri dinlənilib.

# Komitə sədri: "Radikal dini qruplar dini təhrif edərək insanları yanlış yola çəkmək istəyirlər"

***"Bəzi radikal dini qruplar dini təhrif edərək, yanlış formada insanlara çatdırmaqla onları səhv yola çəkmək istəyirlər".***

Bu sözləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakıda keçirilən "Kitab nəşri və rəqəmsal inqilab: rəqəmsal nəşriyyat sənayesinə doğru istiqamətlər, proseslər və praktiki addımlar" mövzusundakı beynəlxalq seminarda deyib. O bildirib ki, həmin radikal qruplar bu sahədəki fəaliyyətlərində elektron nəşr formalarından da istifadə edirlər: "Radikal dini qruplar təhrif olunmuş dini yazıları yaymaq üçün elektron vasitələrdən də istifadə edirlər. Ona görə bu prosesləri diqqətdə saxlayırıq. Ümumiyyətlə, Azərbaycana daxil olan bütün dini resurslar yoxlanılır".

# YAP SƏBAİL RAYON TƏŞKİLATININ ƏHMƏD CAVAD 12 ƏRAZİ PARTİYA TƏŞKİLATININ YENİ ÜZVLƏRİNƏ VƏSİQƏLƏR TƏQDİM OLUNUB

Aprelin 14-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının Əhməd Cavad 12 ərazi partiya təşkilatının yeni üzvlərinə vəsiqələr təqdim olunub.



İclasda YAP Səbail rayon təşkilatının Əhməd Cavad 12 ərazi partiya təşkilatının sədri Səyyad Salahlı, təşkilatın Gənclər Birliyinin sədri Aygül Ağayeva və partiya üzvləri iştirak ediblər.

İclas iştirakçılarını salamlayan Səyyad Salahlı Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi uğurlu siyasət nəticəsində dövlətimizin və xalqımızın inkişafına, tərəqqisinə, dünyada yüksək imicinin formalaşmasına nail olunduğunu vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafı naminə parlaq fəaliyyət göstərdiyini bildirib. S.Salahlı qeyd edib ki, dövlətimizin başçısı müasir dünyada Azərbaycanın inkişaf modelinin tanınıb qəbul edilməsinə nail olub. O, bu inkişaf modelinin artıq bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsinin və müsbət təcrübə kimi öyrənilməsinin qürurverici məqam olduğunu əlavə edib.

Təşkilatın Gənclər Birliyinin sədri Aygül Ağayeva çıxışında YAP Gənclər Birliyinin həyata keçirdiyi layihələrin önəmindən bəhs edib. Müxtəlif sahələri əhatə edən layihələrin gənclərin dünyagörüşünün artırılması, yeni bilik və bacarıqlara yiyələnməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib. A.Ağayeva partiyanın yeni üzvlərini Azərbaycanımızın daha da qüdrətlənməsi, möhkəmlənməsi yolunda bütün səylərini birləşdirməyə çağırıb.

Sonda yeni üzvlərə partiya vəsiqələri təqdim olunub.

Ulu Öndər Heydər Əliyevin yaratdığı partiyanın sıralarında təmsil olunmağın şərəfli, eyni zamanda məsuliyyətli olduğunu bildirən Səyyad Salahlı partiya üzvlərinə ölkəmizin dövlətçilik ənənələrinin, Azərbaycan həqiqətlərinin, YAP ideyalarının təbliğində fəal olmağı tövsiyə edib.

Partiyanın yeni üzvləri bu etimaddan qürur hissi keçirdiklərini bildirərək üzərlərinə düşən məsuliyyəti yüksək səviyyədə yerinə yetirəcəklərini söyləyiblər.

# DQİDK sədrinin birinci müavini Səyyad Salahlının (Aranın) 65 illik yubileyi qeyd olunub



Aprelin 19-da Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda tanınmış yazıçı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının anadan olmasının 65 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid yubilyarın həyat və yaradıcılığından danışıb. Onun ilk əmək fəaliyyətinə ədəbiyyat müəllimi kimi başladığını deyən natiq S.Salahlını hər zaman yaradıcılıq axtarışında olan adam kimi xarakterizə edib. R.Məcid vurğulayıb ki, o, ədəbi arenada sözünü deyən yazıçı olmaqla yanaşı, həm də ictimai-siyasi xadim kimi tanınır.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq Yazıçısı Anar çıxış edərək deyib ki, Səyyad Aran çox gözəl yazıçı, eyni zamanda mənim üçün işıqlı bir insandır: "Səyyad Aran müəllim kimi fəaliyyətə başlamasına baxmayaraq, eyni zamanda jurnalist kimi, siyasi xadim kimi, o cümlədən Yeni Azərbaycan Partiyasının qurucularından biri kimi də özünü təsdiqləyib. Həmçinin yazıçı və tədqiqatçı alim kimi də Azərbaycanın həyatında çox mühüm bir yer tutur".

Yubilyarı təbrik edən Anar Azərbaycan Yazıçılar Birliyinin hədiyyəsini ona təqdim edib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, Milli Məclisin deputatı Nizami Cəfərov yubilyarın zəngin yaradıcılıq məziyyətlərindən söz açıb. "Səyyad Aranın əsərlərində hissiyyatların zənginliyi ilə yanaşı, müdriklik və təmkin ön plandadır. O, ən zərif hissləri, istər siyasi, istərsə də psixoloji məzmunda müəllif səliqəsi ilə təqdim edir. Səyyad Aran imkan vermir ki, əsərlərindəki psixoloji təhlil anti-psixoloji təhlilə çevrilsin. O, məşğul olduğu bütün sahələrdə zəngin şəxsiyyətdir. Eyni zamanda, ədəbiyyatımıza və siyasətimizə hörmət gətirən adamdır", - deyə N.Cəfərov qeyd edib.

Milli Məclisin deputatı Jalə Əliyeva Səyyad Aranı bir yazıçı, siyasətçi kimi yaxşı tanıdığını bildirib: "Rəhmətlik anam mənə anlatdı, tövsiyə etdi ki, o çox yaxşı, səmimi və vətənpərvər insandır. Anamın dedikləri hələ də qulaqlarımdan getməyib".

Yubilyara xoş sözlərini ünvanlayan Xalq Yazıçısı Mövlud Süleymanlı: "Bizi görkəmli yazıçımız, rəhmətlik Fərman Kərimzadə tanış edib. Səyyad Aran mənim həmişə maraqla oxuduğum yazıçılardandır. O dünyadan vaxtsız köçmüş Şahmar Hüseynov üslubunda yazan istedadlı qələm adamıdır", - deyərək yazıçının ayrı-ayrı əsərlərinin detallarının ətraflı təhlilini aparıb.

Professor Buludxan Xəlilov S.Aranın aydın, xəlqi yazıçı dilindən bəhs edib. Bildirib ki, bir yazıçı kimi onu yaddaşı, səmimiyyəti, peşəkarlığı ucaldıb.

Tanınmış yazıçı Seyran Səxavət S.Aranın "Körpü" adlı ilk mətbu əsərini "Ulduz" jurnalına gətirdiyi illərindən söz açıb: "O hekayənin elə ilk sətirləri Səyyadın səmimi, orijinal üslubundan xəbər verirdi və mən hekayəni jurnalın baş redaktoru Yusif Səmədoğluya ürəklə təqdim etdim..."

Din xadimi Hacı Fuad Nurullah, tənqidçilərdən Əsəd Cahangir, Bəsti Əlibəyli, millət vəkili, yazıçı Aqil Abbas, yazıçı Pərvin, şairlərdən Oqtay Rza, Elçin İsgəndərzadə, Qəşəm Nəcəfzadə, Dayandur Sevgin, eləcə də YAP-ın yarandığı ilk illərdə S.Aranla bir yerdə işləmiş Sadıq Qurbanov və başqaları yubilyarla bağlı fikir və xatirələrini bölüşüblər.

Tədbir çərçivəsində Səyyad Salahlının "Sazaq" adlı kitabının təqdimatı olub.

Sonda Səyyad Salahlı tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib və bundan sonra da Azərbaycan ədəbiyyatına böyük həvəslə xidmət edəcəyini söyləyib.



# «Tolerantlıq xalqımızın əsrlərboyu formalaşan xarakterik xüsusiyyətidir»



"Tolerantlıq - dünyamızın geniş mənada müxtəlifliyinin, insanların özünüifadə formalarının və şəxsiyyətin formalaşma üsullarının hörmətlə qəbul edilməsidir. Bu, nəinki mənəvi borc, həmçinin siyasi və hüquqi tələbatdır. Dini dözümlülük güzəşt yox, ilk növbədə, insan hüquqlarının qəbul edilməsi əsasında formalaşan fəal münasibətdir. İftixar hissi ilə qeyd edilməlidir ki, bu gün mütərəqqi dünyanın başlıca demokratik dəyərlərindən biri kimi təbliğ etdiyi tolerantlıq xalqımızın əsrlərboyu formalaşan və bir çoxları üçün örnək olan xarakterik xüsusiyyətidir".

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib. Onun sözlərinə görə, bu gün Azərbaycan dini müxtəliflik baxımından çox zəngindir: "Xoşbəxtlikdən müxtəlif dinlərin və dini-fəlsəfi cərəyanların yayıldığı ölkəmizdə bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşıb, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmayıb. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar yerli əhali ilə qaynayıb-qarışıb, qohumluq əlaqələri qurub və sözün əsl mənasında birgəyaşayışın harmonik vəhdətini nümayiş etdiriblər. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman həmrəy olub, vahid Vətənimizin azadlığı və firavanlığı uğrunda çalışıblar. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda vuruşub, bu yolda canından keçmiş müxtəlif dini konfessiyalara mənsub vətəndaşlarımızın da uyuduqları Şəhidlər Xiyabanı bu gün bizim təkcə and yerimiz deyil, həm də qardaşlığımızın və vəhdətimizin simvoludur".

Dövlət Komitəsi sədrinin birinci müavini onu da bildirib ki, bu gün Azərbaycanda müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün lazımi şərait yaradılıb. "Azərbaycan əsrlərboyu fərqli sivilizasiyaların bir araya gəldiyi məkan olub. Burada həmişə milli-mədəni rəngarənglik mühiti formalaşıb, müxtəlif millətlərin və konfessiyaların nümayəndələri sülh, anlaşma və dialoq şəraitində yaşayıbdır. Azərbaycan multikultural cəmiyyətin tipik xüsusiyyətlərini daşıyır. Burada İslam dininin iki mühüm qolu olan şiəliklə sünniliyin, çoxsaylı müsəlman məzhəb və təriqətlərinin davamçıları ilə yanaşı, yəhudi və xristian dini icmaları geniş təmsil olunublar. Həm də Yəhudilik və Xristianlığın ayrı-ayrı cərəyanları etnik tərkib və say etibarilə müxtəlif icmalar halında ölkəmizin ictimai və mədəni həyatında yer tuturlar. Artıq fərqli mədəniyyətlərin nümayəndələri nəinki qonşuluqda, hətta eyni evin daxilində yaşayırlar. Bu da öz növbəsində bəşər cəmiyyəti üçün yeni birgəyaşayış forması yaranmasını zəruri edir. Məntiqi olaraq fundamental dəyər kimi sülh və əmin-amanlıq anlayışlarının əhəmiyyəti artır. Bu anlayışlar bəşər cəmyyətinin harmoniya halında inkişafını və böhran vəziyyətindən birgə daha uğurlu çıxmasını şərtləndirən amillərdir".

S.Salahlı vurğulayıb ki, Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisi və bərpası artıq bir ənənə halını alıb: "Fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. 2001-ci ilin may ayında Azərbaycanda səfərdə olan II Aleksi (o dövrdə Rus Pravoslav Kilsəsinin rəhbəri) ölkəmizdəki tolerantlıq mühitinə, necə deyərlər, heyran qalıb və səmimi etiraflar edib. Burada pravoslavlar heç bir sıxışdırmaya məruz qalmadan öz dinlərinə və əqidələrinə etiqad edirlər. Hətta bu cür şərait təəssüf ki, bəzi pravoslav ölkələrdə belə yoxdur".

# “İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri”



***Aprelin 24-də Ucar şəhərindəki Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ucar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri” mövzusunda seminar-müşavirə keçirilib.***

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Ucar RİH başçısının müavini Şəhla Abdullayeva, Ucar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Məhəmməd Bayramov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müşavirəni Ucar RİH başçısının müavini Şəhla Abdullayeva açaraq qeyd edib ki, bu gün dünyada islamofobiyanın baş alıb getdiyi bir dövrdə Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilməsi dünyada birliyə çağırış rolunu oynayır.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinin sağlam prinsiplər üzərində qurulduğunu deyib. O bildirib ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsində əsas məqsədlərdən biri də İslam həmrəyliyində Azərbaycanın özünəməxsus rolunu gücləndirməkdir. IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

* * *

***Növbəti tədbir aprelin 25-də Göyçay rayonunda DQİDK və Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə baş tutub.***

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Göyçay RİH-in başçısı Mehdi Səlimzadə, hüquq-mühafizə orqanlarının rəhbərləri, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Göyçay və Ucar rayonları üzrə səlahiyyətli nümayəndələri Rəsul Kazımov, Cavid Səfərov, dini icmaların sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Göyçay RİH-in başçısı Mehdi Səlimzadə bildirib ki, Prezident İlham Əliyevin 2017-ci ili “İslam Həmrəyliyi ili” elan etməsi islami dəyərlərə verilən qiymətin bariz nümunəsidir. M.Səlimzadə onu da qeyd edib ki, müasir dövrdə İslam aləminin, müsəlman dövlətlərinin siyasi birliyə, mənəvi həmrəyliyə, əqidə və məram tərəfdaşlığına böyük ehtiyacı var. Bu baxımdan Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi humanist və sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı isə çıxışında qeyd edib ki, çağdaş dünyamız olduqca gərgin günlərini yaşamaqdadır, lakin qlobal siyasi və hərbi kataklizmlərə baxmayaraq, Azərbaycan “sabitlik adası” olaraq qalmaqdadır.

S.Salahlı eyni zamanda, dini icma sədrlərini İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırıb və bu istiqamətdə öz tövsiyələrini verib. O bildirib ki, dini-mədəni irsin məhvi prosesləri kimi təhdidlərdən İslam dünyası, ümumən bəşəriyyət yalnız səylərin birləşdirilməsi, həmrəylik, dinlər arasında əməkdaşlıq sayəsində xilas ola bilər.

Daha sonra çıxış edən Göyçay Rayon Polis Şöbəsinin rəisi Sənan Əsədov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, rayon ağsaqqallar şurasının sədri Səfər Qəniyev, tarix müəllimi Qənirə Paşayeva, QMİ-nin Göyçay və Ucar rayonları üzrə səlahiyyətli nümayəndəsi Rəsul Kazımov və dini icma sədri Müşviq Əsgərov da Prezident İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında Sərəncamını ciddi əhəmiyyətə malik təşəbbüs kimi dəyərləndiriblər.

Tədbirlərdə mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# “İslam Həmrəyliyi İli” ilə əlaqədar tədbir təşkil olunub



***Aprelin 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və SOCAR-ın birgə təşkilatçılığı, “Azneft” İstehsalat Birliyi və Nəqliyyat İdarəsinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə tədbir keçirilib.***

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, SOCAR-ın vitse-prezidentinin müşaviri Aydın Bədəlov, SOCAR-ın Nəqliyyat İdarəsinin rəisi Elçin Zülfüqarov iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan SOCAR-ın Kadr, Rejim və İnformasiya texnologiyaları üzrə vitse-prezidentinin müşaviri Aydın Bədəlov ölkəmizin multikultural dəyərlərə və tolerant ənənələrə malik olduğunu, bu dəyərlərin dünya üçün nümunəvi xarakter daşıdığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən DQİDK-nın sədr müavini Səyavuş Heydərov ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan, dini tolerantlığın qorunmasının əhəmiyyətindən danışıb. 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən “İslam Həmrəyliyi İli” elan olunduğunu bildirən S.Heydərov Azərbaycanın bununla dünyaya sülh, birlik və qardaşlıq mesajı verdiyini qeyd edib.

Görüşdə radikal təsirlərin qarşısının alınması və milli-mənəvi dəyərlərimizin qorunması məqsədilə DQİDK-nın sifarişi ilə çəkilmiş “Fitnə” sənədli filmi nümayiş olunub.

# Polis Akademiyasında görüş keçirilib

AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS AKADEMİYASI

Aprelin 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun Daxili İşlər Nazirliyinin Polis Akademiyasının şəxsi heyəti və kursantları ilə görüşü keçirilib.

Görüşdə “Fitnə” sənədli filmi nümayiş olunub. Filmin nümayişindən sonra çıxış edən Komitə sədrinin müavini Səyavuş Heydərov dini radikalizm və ekstremizmin yaranma səbəbləri, təzahür formaları və onunla mübarizə yolları haqqında çıxış edib. Komitə sədrinin müavini gələcək polis əməkdaşları tərəfindən dini radikalizmlə mübarizə istiqamətində peşəkar mübarizə metodologiyasının mənimsənilməsinin vacibliyini vurğulayıb.

Daha sonra çıxış edən Polis Akademiyasının rəis müavini, polis polkovniki Mahir Əhmədov Dövlət Komitəsi rəhbərliyinə öz təşəkkürünü bildirərək, bu kimi tədbirlərin böyük əhəmiyyət kəsb etdiyini dinləyicilərin diqqətinə çatdırıb.

# Dövlət Komitəsində "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının nümayəndələri ilə görüş olub



Aprelin 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov "Yehovanın Xristian Şahidləri" Avropa Assosiasiyasının sədri Toni Breys və qurumun nümayəndəsi Mariyano Makiyas Quzman ilə görüşüb.

Görüşdə Dövlət Komitəsinin sədr müavini S.Heydərov qeyd edib ki, Azərbaycan ənənəvi müsəlman ölkəsi olmaqla yanaşı, eyni zamanda dünyəvi dövlətdir, dini və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Azərbaycandakı mövcud qanunvericilik bazası da vətəndaşların bu sahədəki hüquqlarını tam şəkildə qoruyur. O, ölkəmizdə dini icmaların qanun çərçivəsində azad fəaliyyəti üçün zəruri şəraitin yaradıldığını, eləcə də onlara dövlətimiz tərəfindən maddi və mənəvi dəstək göstərildiyini bildirib.

S.Heydərov vurğulayıb ki, bəzi Avropa ölkələrində islamofobiya, irqi və dini ayrı-seçkilik kimi təhdidlər getdikcə daha təhlükəli forma almaqla geosiyasi maraqların ödənilməsi vasitəsinə çevrilməkdədir. Belə bir şəraitdə dünyada sülhün təminatında dini təhlükəsizlik problemi getdikcə artmaqdadır. Komitə sədrinin müavini bütün bu qarşıdurma və təhdidlərin qarşısının alınmasında Azərbaycanın əsas çıxış yolunu tolerantlıqda, həmrəylikdə gördüyünü bildirib.

# "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib

## Şəki



Aprelin 26-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Şəki Şəhər İcra Hakimiyyətinin (ŞİH) təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialında "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi münasibətilə təşkil olunan tədbirdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Şəki bölgəsi üzrə şöbəsinin müdiri Gündüz Paşayev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının direktor müavini Nurəli Çələbiyev, eləcə də universitetin müəllim və tələbələri iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Azərbaycan Pedaqoji Universitetinin Şəki filialının direktor müavini Nurəli Çələbiyev çıxışında bildirib ki, 2017-ci ilin ölkəmizdə möhtərəm Prezidentimizin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan edilməsi təkcə Azərbaycan və İslam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün böyük önəmi var. Azərbaycan öz təqdimatında İslamın əsl mahiyyətini bütün dünyaya çatdırmağa çalışır, eyni zamanda, ölkəmizin İslam dünyası ilə münasibətlərinin strateji əhəmiyyətini, İslam dünyasının vəhdətinə verdiyi önəmi göstərir.

Konfransda Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Sədr müavini ənənəvi dini dəyərlərimizin mahiyyətindən bəhs edərək bu dəyərlərin qorunmasının vacibliyinə toxunub. O qeyd edib ki, qeyri-ənənəvi dini təriqətlərin yayılması cəhdlərinin qarşısının alınması gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin düzgün aparılmasından asılıdır. Gündüz İsmayılov vurğulayıb ki, müasir cəmiyyətdə dini dəyərlərin düzgün təbliğində, dini radikalizmə qarşı mübarizədə maarifçilik əsas silahdır. Sədr müavini bu istiqamətdə ardıcıl işlərin həyata keçirildiyini bildirərək milli-mənəvi dəyərlərə varislik və müasirlik prizmasından yanaşılmasının zəruri olduğunu gənclərin diqqətinə çatdırıb.

Sonra çıxış edən Şəki ŞİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Sadiq Yusifov rayondakı sabit dini durum barədə məlumat verib. O, dini radikalizmin qarşısının alınmasında ən mühüm addımın maarifləndirmə olduğunu qeyd edərək həm dini, həm də dünyəvi təhsilin əhəmiyyətindən danışıb.

Konfrans diskussiya formasında davam etdirilib.

## Şirvan



Aprelin 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində Prezident İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq konfrans keçirilib.

"İslam həmrəyliyi:müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Elmira Ağayeva, İctimai-siyasi və humanitar məsələlər üzrə şöbənin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov, AR Prezidenti yanında Bilik fondunun sektor müdiri Hacı Abdulla, kollecin direktoru Balamirzə Məmmədov, Şirvan şəhər Təhsil şöbəsinin müdiri Rövşən Allahverdiyev, DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin müdiri Azər Sadıqov, eləcə də kollecin müəllim-tələbə heyəti iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Elmira Ağayeva ölkəmizdə dinə dövlət qayğısından və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi dini maarifləndirmə tədbirlərinin önəmindən danışıb.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxışında bildirib ki, regionlarda keçirilən bu konfransların məqsədi Azərbaycanın müxtəlif bölgələrində cəmiyyətin, xüsusilə də gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunması, dini mühitdə radikallığa meyillərin səbəbinin öyrənilməsi, dəyərləndirilməsi, bu meyillərin qarşısının alınması üçün səmərəli metodların aşkara çıxarılması, bu sahədəki kompleks tədbirlərin effektini daha da artırmaqdır. Sədr müavini dini radikalizmin və ekstremizmin milli kimliyimizə qarşı yaratdığı təhdidlərdən, ənənəvi islam anlayışının mahiyyətindən danışıb.

2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının önəmindən danışan Gündüz İsmayılov bu təşəbbüsün İslam dünyasına, eləcə də dünyaya mesaj xarakteri daşıdığını bildirib. O, qeyd edib ki, dünyada artıq uzun illərdir ki, məqsədyönlü şəkildə islamofobiya hökm sürür, İslam ölkələrinin əleyhinə kampaniya aparılır. Belə amillərə qarşı mübarizə aparmaq və bunun üçün də həmrəylik nümayiş etdirmək lazımdır.

Daha sonra çıxış edən AR Prezidenti yanında Bilik fondunun sektor müdiri Hacı Abdulla bildirib ki, dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği, həmçinin dini radikallığın, onu törədən səbəblərin aradan qaldırılması sahəsində ölkəmizdə aparılan genişmiqyaslı işlər, həyata keçirilən tədbirlər də öz müsbət nəticəsini verir. Sonda Kollecin müəllim-tələbə heyətinin mövzu ilə bağlı çoxsaylı sualları cavablandırılıb, təklif və mülahizələri dinlənilib.

# Tbilisidə Qafqaz Müsəlmanları İdarəsinin sədri ilə Ümumgürcüstan katolikos-patriarxı arasında görüş olub



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə aprelin 21-də Ümumgürcüstan katolikos-patriarxı II İliya ilə görüşüb.

Allahşükür Paşazadə ilə bir-birini uzun müddətdir tanıdıqlarını, kommunist rejiminin sərt qayda-qanunlarına baxmayaraq, hər zaman həmrəy olduqlarını, qarşılıqlı dəstək nümayiş etdirdiklərini deyən II İliya bu gün din xadimlərinin münaqişəli bölgələrdə sülh və ədalətin bərqərar olması üçün daha çox səy göstərmələrinin vacibliyini vurğulayıb. O, Qarabağda, Abxaziyada, Cənubi Osetiyada münaqişələrin sülh yolu ilə həll olunacağına inandığını bildirib.

Şeyxülislam A.Paşazadənin Qafqaz üçün gördüyü böyük işləri yüksək qiymətləndirən patriarx onu Gürcüstanda görməkdən şərəf duyduqlarını söyləyib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın salamlarını katolikos-patriarxa çatdırıb.

O, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ətraf rayonlarının erməni işğalçıları tərəfindən zəbt edildiyi vaxtdan indiyədək patriarxın hər zaman haqq-ədaləti müdafiə etdiyini, öz mövqeyini heç zaman dəyişmədiyini bildirib. Ölkələrimizin ərazi bütövlüyü kimi həssas məsələ ilə bağlı patriarxla hər zaman həmrəy olduqlarını söyləyən şeyxülislam din xadimləri kimi münaqişələrin sülh yolu ilə həllinə çağırdıqlarını və buna inandıqlarını bir daha vurğulayıb.

A.Paşazadə deyib ki, bu gün Azərbaycan ilə Gürcüstan dünyada ən tolerant ölkə kimi tanınırlar. Bu səfər və patriarxla görüş səmimi dostluğumuzun, qardaşlığımızın bariz nümunəsidir.

Sonra patriarxın adından Azərbaycan nümayəndə heyətinin şərəfinə ziyafət verilib.

Ziyafətdə çıxış edən II İliya və Şeyxülislam Allahşükür Paşazadə ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrindən, bölgədəki mövcud münaqişələrdən danışıb, bu münaqişələrin həllində din xadimlərinin rolunun artırılmasının vacibliyini vurğulayıblar.

# Bakıda və bölgələrdə "İslam Həmrəyliyi İli" çərçivəsində tədbirlər keçirilib

*Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Qeyd edilənlərə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində aprel ayı ərzində bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:*



**4 aprel** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti (RİH) və Zaqatala rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Danaçı kənd 2 saylı tam orta məktəbdə "Milli dəyərlərimiz, həmrəylik və vətənpərvərlik" mövzusunda;

**7 aprel** – Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Xətai rayonu Zakir Yusifov adına 194 nömrəli tam orta məktəbdə "İslam Həmrəyliyi İli" "Multikulturalizm ili"nin məntiqi davamıdır" mövzusunda; Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və DQİDK-nın birgə təşkilatçılığı ilə Suraxanı Rayonu 232 saylı tam orta məktəbdə "Mənəvi-əxlaqi dəyərlərimiz" mövzusunda;

**11 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Zaqatala rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Mamrux kənd tam orta məktəbində "Vətənpərvər Azərbaycan gəncliyi" mövzusunda;

**13 aprel** – Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi



və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Sabunçu rayonu Nazim İsmayılov adına 80 nömrəli tam orta məktəbdə "İslam-sülh, barışıq və həmrəylik dinidir" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Şəki ŞİH və Şəki şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Mirzə Fətəli Axundov adına mərkəzi mədəniyyət evində "İslam həmrəyliyi milli dəyərlərimizin elementi kimi" mövzusunda; DQİDK-nın Bakı bölgəsi üzrə şöbəsi və Şuşa RİH-in birgə təşkilatçılığı ilə Şuşa Humanitar Kollecində "İslamda ümumbəşəri və milli-mənəvi dəyərlər" mövzusunda;

**17 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Saatlı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin təbliğində gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyəsi" mövzusunda;

**18 aprel** – Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Binəqədi rayonu 83 saylı məktəb-liseydə "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi" mövzusunda; DQİDK, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Nardaran Bilik Evinin birgə təş-



kilatçılığı ilə 130 saylı Nardaran tam orta məktəbində;

**19 aprel** – Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Sabunçu rayonu Nardaran qəsəbəsində yerləşən 295 nömrəli tam orta məktəbdə "İslam sülh və həmrəylik dinidir" mövzusunda;

**20 aprel** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının birgə təşəbbüsü ilə "İslam həmrəyliyi və vətənpərvərlik" mövzusunda;

**21 aprel** – Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Səbail rayonu 189-190 nömrəli tam orta məktəblərdə "Dünyəvi dövlətdə İslam və milli birlik" mövzusunda;



**25 aprel** – DQİDK tərəfindən Zaqatala rayonunun Muxax kəndində "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda;

**26 aprel** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və İsmayıllı RİH-nin birgə təşkilatçılığı ilə İsmayıllı rayon uşaq kitabxanasında "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" mövzusunda baş tutub.

Tədbirlərdə Dövlət Komitəsinin, şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də digər dövlət qurumlarının əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayonun təhsil və mədəniyyət işçiləri, gənclər iştirak ediblər. Çıxışlarda qeyd olunub ki, dövlət başçısı İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" və onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməsi bütün dünyaya "bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq" çağırışıdır. Bu, humanist və sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Çıxışlarında dini radikalizmin mahiyyəti, onun milli-mənəvi və dini dəyərlərimizə qarşı olan zərərli təsirləri barədə də məlumat verən məruzəçilər dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə mütəmadi görüşlərin əhəmiyyətini vurğulayıb, ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının regional və beynəlxalq müstəvidə sabitliyin qorunmasındakı önəmindən danışıb, gənclərə radikal dini cərəyanların təsirinə düşməmək üçün müvafiq tövsiyələrini veriblər.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Maarifləndirmə tədbirləri uğurla davam etdirilir

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən 2017-ci ilin aprel ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maarifləndirilməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**3 aprel** – Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində Lənkəran rayonu Cil kənd R.İbadov adına tam orta məktəbində;



**4 aprel** – Quba rayonu Xucbala kənd məscidi dini icmasının təşkilatçılığı ilə Quba rayonu Digah kəndində "İslam həmrəylik, bərabərlik dinidir" mövzusunda; Qabaq Dadva məhəllə məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində Masallı şəhər "Dəfinə" məktəb-liseyində "İslamda dostluq və qardaşlıq prinsipləri" mövzusunda;

**7 aprel** – Sumqayıt şəhəri Sumqayıt stansiyası yaşayış massivi məscidi "Vəhdət" dini icmasının "İslam həmrəyliyi - dini vəhdətə çağırış" layihəsi çərçivəsində "Dini radikalizm və onunla mübarizədə din xadimlərinin rolu" mövzusunda; Kürdəmir şəhər (1) məscidi dini icmasının "İslamda həmrəylik şüuru" layihəsi çərçivəsində Şəhid Siyavuş Paşayev adına şəhər 6 saylı tam orta məktəbində "İslamda sosial ədalət və həmrəylik" mövzusunda; Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində "İslamda birlik və bərabərlik çağırışları" mövzusunda; Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində;



**12 aprel** – Neftçala rayonu Xolqarabucaq kəndi İmam Hüseyn məscidi dini icmasının "Dini ekstremizmin və radikalizmin multikultural cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində;

**14 aprel** – Kürdəmir şəhər (1) məscidi dini icmasının "İslamda həmrəylik şüuru" layihəsi çərçivəsində M.Ə.Rəsulzadə adına Kürdəmir şəhər 2 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin qarşısında duran maneələr" mövzusunda;

**18 aprel** – Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində V.Məmmədov adına Çiyni kənd tam orta məktəbində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Quba rayonu Xucbala kənd məscidi dini icması tərəfindən Quba rayonu Aşağı Xuc kəndində "İslam həmrəylik, bərabərlik dinidir" mövzusunda;

**20 aprel** – Sabirabad rayon Əsgərbəyli kənd "İmam Əli" adına kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "İslam həmrəyliyi milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi" mövzusunda; Kürdəmir şəhər (1) məscidi dini icmasının "İslamda həmrəylik şüuru" layihəsi çərçivəsində V.Qurbanov adına Kürdəmir rayonu Köhnəbazar kənd tam orta məktəbində "Qurani-Kərimdə və Peyğəmbərin həyatında vəhdətə çağırış" mövzusunda; Sumqayıt şəhəri Sumqayıt stansiyası yaşayış massivi məscidi "Vəhdət" dini icmasının "İslam həmrəyliyi-dini vəhdətə çağırış" layihəsi çərçivəsində "İslamda ailə dəyərləri" mövzusunda;

**25 aprel** – Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində Salmanbəyli kənd Əlfi Məmmədov adına tam orta məktəbdə; Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində Lənkəran rayonu Şağlaser kəndində;

**26 aprel** – Qaradağ rayonu, Qızıldaş qəsəbə məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində;

**27 aprel** – Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində "Məzhəblərarası vəhdət" mövzusunda;

**27 aprel** – Quba rayon Xucbala kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində Çartəpə kəndində "Dini radikalizmin qarşısının alınmasında dini həmrəyliyin və bərabərliyin rolu" mövzusunda baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mərkəzi aparatının və bölgə şöbələrinin,




şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi İslam aləmində həmrəyliyə, birliyə töhfə verəcəkdir. Həmçinin məruzəçilər dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Bölgə xəbərlərimiz

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işlərini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlər zamanı ölkəmizdə multikultural və tolerant mühit, dini radikalizm və ona qarşı mübarizənin əhəmiyyəti haqqında geniş məruzələr söylənilir, dövlət-din münasibətləri barəsində məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə işlərinə cəlb olunması məqsədi ilə faydalı mövzularda çıxışlar olur. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfranslar, seminar-müşavirələr, treninqlər DQİDK-nın təşkilatçılığı ilə, o cümlədən Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində həyata keçirilən tədbirlər:*

**3 aprel** – DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Xətai rayonu 269 saylı tam orta məktəbdə "İslam barışıq və həmrəylik dinidir" mövzusunda;



**4 aprel** – DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Pirallahı rayonu 186 saylı tam orta məktəbdə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Zərdab şəhərində "Zərərli dini cərəyanların milli-mənəvi dəyərlərimizə mənfi təsirləri" mövzusunda;

**5 aprel** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevir şəhər Gənclər və İdman İdarəsinin Gənclər Evində "İslam həmrəyliyi-zamanın çağırışı" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Suraxanı rayonu 318 nömrəli tam orta məktəbdə "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi" mövzusunda;

**6 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Pirşağı qəsəbəsində yerləşən Zəngilan rayon 32 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində Qaradağ rayonunda yerləşən 166 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin dini radikalizmlə mübarizədəki rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə Göyçay rayon Yeniarx kənd tam orta məktəbində "Məktəblilərin radikal dini təsirlərdən qorunmasında təhsilin

davamı səh. 14

# Bölgə xəbərlərimiz

Əvvəli səh. 13 əhəmiyyəti" mövzusunda; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi və Şəki Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin Azərbaycanda və dünyada inkişafının əhəmiyyəti" mövzusunda;



**7 aprel** – Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və menecment fakültəsində "İslam təsərrüfatçılığının cəmiyyətin inkişafında rolu" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində Lənkəran şəhər 4 saylı Humanitar Təmayüllü Məktəb Liseyində "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında maarifləndirmənin əhəmiyyəti" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşəbbüsüylə "İslam həmrəyliyi və zamanın çağırışı" mövzusunda;

**10 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Multikulturalizm etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin səmərəli siyasət modeli kimi mövzusunda;

**11 aprel** – DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Lənkəran şəhər 10 saylı tam orta məktəbdə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında maarifləndirmənin əhəmiyyəti" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq, Suraxanı rayonu Nazim Rəfiyev adına 104 nömrəli tam orta məktəbdə "İslam barışıq və həmrəylik dinidir" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar RİH-in birgə təşkilatçılığı ilə Qazyan kənd 1 saylı tam orta məktəbdə "Dini ekstremizmə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Qobustan RİH və Qobustan Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və radikalizm; əks qütblər" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən rayonu humanitar və texniki təmayüllü liseydə "Dini radikalizm milli birlik və həmrəylik kimi dəyərlərimizə qarşıdır" mövzusunda;

**12 aprel** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə Çərəkə kənd Elman Əzizov adına 2 saylı tam orta məktəbdə "Bəşəriyyətin təhdidlərdən çıxış yolu - Həmrəylik"



mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, Qaradağ rayonunda yerləşən 106 saylı tam orta məktəbdə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Ağdaş RİH-in birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi və zamanın çağırışı" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq, Yardımlı şəhər Heydər Əliyev Mərkəzində "İslam həmrəyliyi radikalizm və ekstremizmə qarşı" mövzusunda;

**13 aprel** – DQİDK və Neftçala RİH-in birgə təşkilatçılığı ilə Neftçala rayonu 1 saylı tam orta məktəbdə "İslam həmrəylik və bərabərlik dinidir" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi, Göygöl RİH, Göygöl rayon Gənclər və İdman İdarəsi və Göygöl rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Tolerantlıq milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir" mövzusunda; DQİDK və Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin birgə hazırladığı Tədbirlər Planına əsasən, Penitensiar xidmətin 7 saylı cəzaçəkmə müəssisəsində;

**14 aprel** – Lənkəran şəhər S.Kazımbəyov adına 6 saylı tam orta məktəb-liseydə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında maarifləndirmənin əhəmiyyəti" mövzusunda; DQİDK, Biləsuvar RİH və Biləsuvar rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "İslamda sosial ədalət və həmrəylik" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq, Xətai rayonu 58 nömrəli tam orta məktəbdə "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda;

**17 aprel** – DQİDK və Təhsil Nazirliyinin birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq, Xəzər rayonu 181 nömrəli tam orta məktəbdə "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda;

**18 aprel** – DQİDK və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində DQİDK-nin Masallı bölgəsi üzrə şöbəsi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə Masallı Gənclər Mərkəzində;

**19 aprel** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 24 saylı tam orta məktəbdə "Fitnə" sənədli filminin nümayişi; DQİDK və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində Yardımlı rayonu Səyyar Şabıyev adına Şəfəqli kənd tam orta məktəbində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə Ləkçıplaq kənd 2 saylı tam orta məktəbində "İslam həmrəyliyinin dini və irqi ayrı-seçkiliyə qarşı əhəmiyyəti" mövzusunda; Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri və DQİDK-nın birgə hazırladığı Tədbirlər Planına əsasən, Hərbi Dəniz Qüvvələrinin N saylı hərbi hissəsində "Multikulturalizm, tolerantlıq və İslam həmrəyliyi dini ekstremizm və radikalizmə alternativ kimi" mövzusunda;

**20 aprel** – DQİDK və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində Nəsimi rayonu, Abdulla Şaiq adına 54 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin və vəhdətin mahiyyəti" mövzusunda; DQİDK və Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Cəlilabad RİH və ADPU-nun Cəlilabad filialının birgə təkilatçılığı ilə Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Ucar RİH-in birgə təşkilatçılığı ilə rayonun Qarabörk kənd tam orta məktəbində "İslam həmrəyliyi milli-mənəvi dəyərlərimizin tərkib hissəsi kimi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Mahamalar kənd tam orta məktəbində "Həmrəylik milli-mənəvi birliyimizin təzahürü kimi" mövzusunda;

**21 aprel** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in birgə təşkilatçılığı ilə rayonun Qəçrəş kənd tam orta məktəbində "Həmrəyliyimiz birliyimizdir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik RİH-in birgə təşkilatçılığı ilə Lerik şəhər V.Müslümov adına 2 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda;

**24 aprel** – DQİDK və Qəbələ RİH-in birgə təşkilatçılığı ilə rayonun Vəndam qəsəbəsində "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda;

**25 aprel** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və Saatlı rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Saatlı şəhər Səməd Vurğun adına 1 saylı tam orta məktəbdə "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması" mövzusunda; DQİDK və Binəqədi RİH-in birgə təşkilatçılığı ilə rayon



Mədəniyyət evində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və onlardan sui-istifadə ilə əlaqədar mübarizədə milli-mənəvi dəyərlərimizin əhəmiyyəti" mövzusunda;

**26 aprel** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Astara RİH-in birgə təşkilatçılığı ilə Astara şəhəri Mərkəzi kitabxanasında "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Quba rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Quba şəhər Texniki Təmayüllü liseydə "Milli-mənəvi dəyərlərin qorunub və inkişaf etdirilməsində yeniyetmə və gənclərin rolunun artırılması" mövzusunda;

**27 aprel** – DQİDK və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin birgə təşkilatçılığı ilə 14 saylı cəzaçəkmə müəssisəsində "İslam həmrəyliyi dini radikalizmə qarşı" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Balakən rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə rayonun Qazbinə kənd tam orta məktəbində "İslam həmrəyliyinin Azərbaycan nümunəsi" mövzusunda;

**27 aprel** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və YAP-nın Masallı Rayon təşkilatının birgə əməkdaşlığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olması-



nın 94-cü ildönümünə həsr edilən "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda baş tutub.

Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş apararaq ölkəmizi bu cür qarşıdurmalardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.

Həmçinin çıxışlarda bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğu qeyd edilərək mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.

Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və DQİDK-nın sifarişi ilə çəkilən dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

# AZƏRBAYCANLI DEPUTAT: MULTİKULTURAL DƏYƏRLƏRİ QORUMAQ BU GÜN HƏYATİ ƏHƏMİYYƏT KƏSB EDƏN MƏSƏLƏDİR



Mən fəxrlə demək istəyirəm ki, Azərbaycanda müxtəlif millətlərin və dinlərin nümayəndələri sülh və dostluq şəraitində yaşayırlar. Belə həyat tərzini heç kimə məcbur etmək mümkün deyil. Tolerantlıq qanda olmalıdır, fikirlər üst-üstə düşmədiyi halda belə qarşılıqlı hörmət çox önəmlidir. Tolerantlıq bizim ənənəvi və mədəni dəyərlərimizin ayrılmaz hissəsidir. Ölkədə xristian və yəhudi icmaları əhalinin əksəriyyətini təşkil edən müsəlmanlarla eyni hüquqlara malikdirlər. Azərbaycanda insanlar dini və etnik mənsubiyyətlərinə görə pis rəftarla qarşılaşmırlar. Sovet dövründə dağıdılmış kilsə və sinaqoqlar dövlətin dəstəyi ilə bərpa olunub.

Bu fikirləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarova qurumun yaz sessiyasında "Avropa dəyərləri təhlükə altında" mövzusunda aparılan debatlar zamanı söyləyib.

S.Qafarova bildirib ki, son dövrlər bir sıra ölkələrdə siyasətçilərin dilindən səslənən rasizmi, ksenofobiyanı təşviq edən fikirlər bizi narahat etməyə bilməz. Dünyada, o cümlədən Avropada terror hadisələrinin artdığı, onlarla günahsız insanın terrorun qurbanına çevrildiyi bir vaxtda dini ayrı-seçkiliyi alovlandıran, faşizmi təbliğ edən bu kimi çağırışlar əlbəttə ki, qətiyyətlə pislənilməlidir.

Qlobal miqrasiya hazırda bütün qitəni narahat edən, o cümlədən müəyyən problemlər yaradan bir məsələdir. Bir sıra təşkilatlar və milli dövlətlər bu problemin aradan qaldırılması üçün səylər göstərir, əməli addımlar atılır. Burada, bu tribunadan da bununla bağlı dəfələrlə, demək olar ki, hər sessiyada çağırışlar edilib, həll yollarının müzakirəsi keçirilib. Amma bu problemin köklü həllinə nail olmadan miqrasiya böhranını aradan qaldırmaq faktiki olaraq mümkün görünmür. Təəssüf ki, bir sıra siyasətçilər miqrasiyanın meydana gəlməsinin səbəblərini çox dəqiq bildikləri, buna baxmayaraq, problemin aradan qaldırılması üçün heç bir addım atmadıqları halda məsələni tamam başqa müstəviyə çəkərək onsuz da çox ağır şəraitdə yaşayan, həyatda qalmaq üçün çox ağır çətinliklərə dözmək məcburiyyətində qalan o insanlara qarşı faktiki linç çağırışları edirlər.

"Hamımız bizi birləşdirən, birgə, təhlükəsizlik və sülh şəraitində yaşamağımızı təmin edən dəyərlərin nədən ibarət olduğunu unutmamalıyıq. Multikulturalizm dəyərlərini, mədəniyyətlərarası dialoqu qorumaq bu gün həyati əhəmiyyət kəsb edən məsələdir", - deyə S. Qafarova vurğulayıb.

## "BAKI-2017" İLƏ ƏLAQƏDAR BÜTÜN MƏSCİD VƏ ZİYARƏTGAHLARDA HƏR CÜR ŞƏRAİT YARADILIB



Gələn ay ölkəmizdə keçiriləcək, 57 ölkəni təmsil edən üç mindən çox idmançının və 15 mindən çox turistin qatılacağı "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları münasibətilə bütün məscid və ziyarətgahlarda idmançıların, eləcə də turistlərin ziyarət və ibadətləri üçün hər cür şərait yaradılıb. Bu barədə AZƏRTAC-a məxsusi olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Məlumata görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən bununla bağlı dini icmalara, din xadimlərinə xüsusi tapşırıqlar verilib.

Qeyd edək ki, ölkə ərazisində 2166 məscid mövcuddur, onlardan 136-sı Bakı şəhərində yerləşir. Bundan başqa, Azərbaycanda 748 pir və ziyarətgah fəaliyyət göstərir, onlardan 25-i Bakı-Abşeron bölgəsinin payına düşür.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mətbuat xidmətinin məlumatı



Aprelin 9-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və hüquq-mühafizə orqanları tərəfindən Qaradağ rayonu ərazisində yerləşən iki ünvana əməliyyat-baxış tədbiri keçirilib. Həyata keçirilmiş tədbirlər nəticəsində Qaradağ rayonunun Lökbatan qəsəbəsində Orucova Solmaz Məmməd qızına məxsus X.İsmayılov küçəsi, 5-ci massiv, ev 18 ünvanında və Ağaliyeva Sevil Babaəli qızına məxsus 1594-cü keçid, ev 24, mənzil 52 ünvanında "Yehova şahidləri" qeyri-ənənəvi dini təriqətinin üzvlərinin qanunsuz toplantı keçirdikləri aşkar edilərək qarşısı alınıb. İki ünvanda 10-u azyaşlı uşaq olmaqla ümumilikdə 33 nəfər müəyyən edilib, həmin dini təriqətin təbliğini ehtiva edən çox sayda dini təyinatlı ədəbiyyat aşkar edilərək götürülüb və müvafiq qaydada sənədləşdirilib.

Fakt üzrə müvafiq araşdırma və təhqiqat tədbirləri davam etdirilir.

## DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

### Dəyişiklik

**"Həyat sözü" Xristian dini icması**
Qeydiyyat tarixi: 24 may 2012-ci il
Qeydiyyat №-si: 100112A1 – 549
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən dini icmanın hüquqi ünvanı dəyişdirilərək Bakı şəhəri, Xətai rayonu, Telnov küçəsi, 2F kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
***Dəyişikliklərin qeydiyyat tarixi: 30 mart 2017-ci il***

**Sabirabad rayonu Balvar kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 493
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağırov Ağabba Bağır oğlu, Nəzərov Salman Nəcəfalı oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Sadıqov Zaur Ramazan oğlu, Zeynalov Fikrət Hidayət oğlu, Qasımov Mustafa Mirzəcan oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
***Dəyişikliklərin qeydiyyat tarixi: 13 aprel 2017-ci il***

**Sabirabad rayonu Kovlar kəndi "İmam Hüseyn" məscidi dini icması**
Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 490
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Heydərov Miryaqub Mirmövsüm oğlu, Məmmədov Əlikram Əliqulu oğlu, Mayılov Sabir Talıbxan oğlu, Məmmədov Atabəy Emin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Cəbrayılov Cavid Hacıağa oğlu, Əsgərov Paşa Mikayıl oğlu, Əskərov Zabil Mikayil oğlu, Taqıyev Bulud Əhməd oğlu, Ağayev Mirvahid Mirhəkim oğlu, Gülalıyev Gülağa Gülalı oğlu, İbrahimov Əlsahib İsmayıl oğlu, Heydərov Mirkərim Mirmövsüm oğlu, Başirov Yaşar Fəzail oğlu, Baxşiyev Fuad Zöhrab oğlu, Ağayev Namiq Feyruz oğlu, Əskərov Müşviq Mikayıl oğlu, Ağayev Mirqabil Seyidəli oğlu, Ağayev Mircəfər Ağamurad oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
***Dəyişikliklərin qeydiyyat tarixi: 13 aprel 2017-ci il***

**Sabirabad rayonu Əsgərbəyli kəndi "Camallı" məscidi dini icması**
Qeydiyyat tarixi: 24 sentyabr 2010-cu il
Qeydiyyat №-si: 100110A4 – 487
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Şirinov Əlihüseyn Fərman oğlu, Əzizov Boris Əziz oğlu, Şirinov Gülhüseyn Fərman oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Şirinov Rauf Gülhüseyn oğlu, Şirinov Elzamin İdris oğlu, Əmiraslanov Xəlil Sərəslan oğlu, Şirinov Yaşar Əlihüseyn oğlu, Tapdıqov Elçin Murtuza oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
***Dəyişikliklərin qeydiyyat tarixi: 13 aprel 2017-ci il***

**Goranboy rayonu Safıkürd və Tatarlı kənd məscidi dini icması**
Qeydiyyat tarixi: 29 mart 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 262
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qasımov Şubay Allahverdi oğlu, Şərifov Magelson Əhəd oğlu, Məmmədov Dadaş Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Əsgərov Mayis Zinəddin oğlu, Əliyev Şəmsi Kərəm oğlu, Şirinov Afər Nurəddin oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
***Dəyişikliklərin qeydiyyat tarixi: 20 aprel 2017-ci il***

CƏMİYYƏT və DİN
№ 4 (309) / APREL 2017-ci il

# Malala Yusufzay BMT-nin sülh elçisi təyin edilib



Pakistanın hüquq müdafiəçisi, Nobel mükafatı laureatı Malala Yusufzay rəsmi olaraq BMT-nin sülh elçisi təyin edilib və bununla da nüfuzlu təşkilatın ən gənc elçisi olub.

Pakistan mətbuatının verdiyi məlumata görə, Malala Yusufzay qızların təhsil proqramı ilə məşğul olacaq.

Təyinat mərasimində BMT-nin baş katibi Antonio Quterreş Malala Yusufzayı təbrik edib, bu məsul işdə ona uğurlar arzulayıb.

Malala Yusufzay 2012-ci il oktyabrın 9-da Pakistanın Xayber-Paxtunxva əyalətində məktəbdən evə gələrkən terrorçuların hücumuna məruz qalıb, başından və boğazından güllə yarası alıb. Xəstəxanadan çıxdıqdan sonra o, qızların hüquqlarının müdafiəsinə qalxıb. Bu istiqamətində fəaliyyətinə görə 2014-cü ildə Nobel mükafatına layiq görülüb və ən gənc Nobel laureatı olub.

# Çində müsəlman uşaqlar üçün ad seçimi məhdudlaşdırılır



Çinin Sincan-Uyğur muxtar rayonunun hökuməti yeni doğulan körpələrə qoyulması qadağan olunan adların siyahısını hazırlayıb.

Interfax informasiya agentliyi xəbər verir ki, qadağa İslam dini ilə bağlı olan İslam, Quran, Səddam, Məkkə və bu kimi digər adlara aiddir. Həmin adları daşıyan uşaqların dövlət səhiyyə və təhsil sistemlərinə girişinə icazə verilməyəcək.

Böyük Britaniyanın "The Guardian" qəzetinin məlumatına əsasən, ölkənin 23 milyonluq müsəlman icmasının təxminən yarısı Sincan-Uyğur muxtar rayonunda yaşayır. Bir qədər əvvəl regionun hökuməti qadınlara niqab taxmağı, kişilərə isə qeyri-tipik saqqal saxlamağı qadağan etmişdi.

Qadağan olunan adların tam siyahısı hələ dərc edilməsə də, artıq hüquq müdafiəçilərinin tənqidinə məruz qalıb. "Human Rights Watch" təşkilatının Çin bölməsinin direktoru Sofi Riçardsonun sözlərinə görə, belə tədbirlər insanların etiqad azadlığının "kobud pozulmasıdır".

## Yadigar söz

Nəriman Nərimanov,
*İctimai-siyasi xadim*

**Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür.**

# Bakı və Abşeron üzrə namaz vaxtları (May -2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:10 | 05:41 | 12:38 | 17:33 | 19:51 | 21:00 |
| 2 | 04:08 | 05:39 | 12:38 | 17:33 | 19:52 | 21:01 |
| 3 | 04:07 | 05:38 | 12:38 | 17:34 | 19:53 | 21:03 |
| 4 | 04:05 | 05:37 | 12:37 | 17:34 | 19:54 | 21:04 |
| 5 | 04:03 | 05:36 | 12:37 | 17:35 | 19:55 | 21:06 |
| 6 | 04:02 | 05:34 | 12:37 | 17:35 | 19:56 | 21:07 |
| 7 | 04:00 | 05:33 | 12:37 | 17:36 | 19:57 | 21:08 |
| 8 | 03:59 | 05:32 | 12:37 | 17:37 | 19:58 | 21:10 |
| 9 | 03:57 | 05:31 | 12:37 | 17:37 | 19:59 | 21:11 |
| 10 | 03:56 | 05:30 | 12:37 | 17:38 | 20:00 | 21:12 |
| 11 | 03:54 | 05:29 | 12:37 | 17:38 | 20:01 | 21:14 |
| 12 | 03:53 | 05:28 | 12:37 | 17:39 | 20:02 | 21:15 |
| 13 | 03:51 | 05:27 | 12:37 | 17:39 | 20:03 | 21:17 |
| 14 | 03:50 | 05:26 | 12:37 | 17:40 | 20:04 | 21:18 |
| 15 | 03:48 | 05:25 | 12:37 | 17:40 | 20:05 | 21:19 |
| 16 | 03:47 | 05:24 | 12:37 | 17:41 | 20:06 | 21:21 |
| 17 | 03:46 | 05:23 | 12:37 | 17:42 | 20:07 | 21:22 |
| 18 | 03:44 | 05:22 | 12:37 | 17:42 | 20:08 | 21:23 |
| 19 | 03:43 | 05:21 | 12:37 | 17:43 | 20:09 | 21:25 |
| 20 | 03:42 | 05:20 | 12:37 | 17:43 | 20:10 | 21:26 |
| 21 | 03:40 | 05:20 | 12:37 | 17:44 | 20:11 | 21:27 |
| 22 | 03:39 | 05:19 | 12:37 | 17:44 | 20:12 | 21:28 |
| 23 | 03:38 | 05:18 | 12:37 | 17:45 | 20:13 | 21:30 |
| 24 | 03:37 | 05:17 | 12:37 | 17:45 | 20:14 | 21:31 |
| 25 | 03:36 | 05:17 | 12:37 | 17:46 | 20:15 | 21:32 |
| 26 | 03:35 | 05:16 | 12:38 | 17:46 | 20:16 | 21:33 |
| 27 | 03:34 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:34 |
| 28 | 03:33 | 05:15 | 12:38 | 17:47 | 20:17 | 21:36 |
| 29 | 03:32 | 05:14 | 12:38 | 17:48 | 20:18 | 21:37 |
| 30 | 03:31 | 05:14 | 12:38 | 17:48 | 20:19 | 21:38 |
| 31 | 03:30 | 05:13 | 12:38 | 17:49 | 20:20 | 21:39 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# Luksor yaxınlığında qədim Misir fironunun məqbərəsi aşkarlanıb

Misirli arxeoloqlar ölkənin cənubundakı Luksor rayonunda Qədim Misir fironlarının XVIII sülaləsi dövrünə aid yüksək vəzifəli müşavirin məqbərəsini aşkar ediblər. Misirin qədim abidələr naziri Xalid əl-Ənaninin verdiyi məlumata görə, məqbərədə çoxsaylı heykəllər və mumiyalar tapılıb.

Luksorun qədim abidələr üzrə baş direktoru Mustafa Vəziri bildirib ki, Luksorun qərbində fironlar sülaləsi dövrünün Osorxat adlı müşavirinin türbəsində 1000-dən çox heykəl, xeyli mumiya, habelə məqbərəyə aid alətlər aşkarlanıb.

Qeyd etmək lazımdır ki, qədim Misir fironlarının XVIII sülaləsi təqribən eramızdan əvvəl 1550-1292-ci illərdə hakimiyyətdə olub. Bu, ən məşhur sülalələrdən biri sayılır. Şahzadə Xatşepsut, məşhur Tutanxamon və din islahatçısı Exnaton bu sülaləyə mənsub olublar.



# Dünyaya bənzəyən planetin ətrafında atmosfer tapılıb

Anadolu agentliyinin məlumatına əsasən, alimlər ilk dəfə Yer planetinə bənzəyən planetin ətrafında atmosferə rast gəldiklərini açıqlayıblar.

İngiltərənin Keele Universitetinin professoru bildirib ki, planet 2015-ci ildə kəşf edilib. "GJ 1132b" adı verilən planet su, metan və ya ikisinin qarışığından ibarət olan qalın bir qaz təbəqəsi ilə əhatə olunub. Bunun üçün Çilidə yerləşən rəsədxananın teleskopundan istifadə etdiklərini bildirən alim planetin atmosferinin böyük ehtimalla isti buxardan meydana gəldiyini vurğulayıb.

Dünyadan 39 işıq ili uzaqlıqda yerləşən bu planet Yer kürəsindən 1,4 dəfə böyükdür. İstiliyi təxminən 370 dərəcə olan planet yaşamağa uyğun deyil.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894